RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 44 (8360) CÜMƏ AXŞAMI, 27 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib




**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər.**

Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri abidənin önünə gül dəstələri qoydular.



# Möhkəm təməl üzərində qurulan əbədi qardaşlıq

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri, imzalanan 14 yeni saziş çoxşaxəli Azərbaycan-Türkiyə əlaqələrinə yeni dinamizm gətirəcək

**Strateji tərəfdaşlıq, qardaşlıq münasibətlərini yüksələn xətlə inkişaf etdirən Azərbaycan-Türkiyə əlaqələri son illərdə mühüm mərhələyə qədəm qoyub.**

Bunu şərtləndirən amillər hər iki ölkənin dövlət başçıları arasındakı səmimi dostluq münasibətləri, liderlərin mütəmadi xarakter daşıyan qarşılıqlı səfərləri, görüşləri, müxtəlif zirvə toplantıları çərçivəsində təmasları, birlikdə həyata keçirdikləri beynəlxalq transmilli layihələrdir.

Bu gün Azərbaycan və Türkiyə iqtisadi və enerji imkanlarından, eləcə də geosiyasi mövqelərindən daha səmərəli şəkildə istifadə edirlər. Hazırda bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasında münasibətlərin çox vacib elementlərindən olan neft və qaz layihələri təkcə regionda deyil, eləcə də dünyada hər iki dövlətin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb.

*Ardı 2-ci səh.*

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlət başçısı Prezident Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib, qardaş Türkiyənin firavanlığı naminə ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib.

Dövlət başçıları dünən Bakıda keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasının əhəmiyyətinə toxunaraq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Dövlət BAXÇALI: "Xocalı türkün yurdudur, türkün qürurudur, işğalçılar sonsuza qədər lənətlənmişdir"

### Türkiyənin hakim koalisiya ortağı Milliyyətçi Hərəkat Partiyasının rəhbəri Dövlət Baxçalı 9 fevral seçki qələbəsi münasibətilə İlham Əliyevi və YAP-ı təbrik edib

"Xocalı dinməyən hayqırtı, bitməyən acı, tükənməyən bir türk sevdasıdır. Xocalının yaraları dərindir, yamacları sərindir, əks-sədası böyükdür. Tam 28 ildir ki, Dağlıq Qarabağın Xocalı şəhəri türklüyün vicdanında bir sızıltı, ürəklərdə bir ağrıdır".

*Ardı 3-cü səh.*



# Azərbaycan Prezidentinin İtaliya səfəri ölkəmizin Avropadakı mövqe və nüfuzunu daha da gücləndirmişdir

**Azərbaycan Prezidentinin İtaliya Respublikasına dövlət səfəri bir neçə baxış bucağından xüsusi maraq kəsb edir.**

İkitərəfli münasibətlər kontekstində bu dövlət səfəri səviyyəsinə görə ən yüksək tədbir hesab olunur, iki ölkə arasında ciddi, hərtərəfli və daha dərin münasibətlərin inkişafına təkan verir. Üstəlik, Prezident İlham Əliyevin bu səfəri İtaliya üçün də xüsusi əhəmiyyət kəsb edir. Maraq doğuran amillərdən biri də odur ki, Azərbaycan bu gün nisbətən yeni dövlət kimi bütün dünyanın diqqət mərkəzindədir.

Ölkəmizin yeritdiyi daxili və xarici siyasət, apardığı islahatlar, reallaşdırdığı qlobal layihələr və inkişaf etmiş ölkələrlə qurduğu iqtisadi, siyasi və diplomatik əlaqələr öyrənilir, araşdırılır və qiymətləndirilir.

Məlumdur ki, planetar miqyasda baş verən qanlı çaxnaşmalar, dərinləşən və müharibələrə çevrilən ağır münaqişələr minillik tarixi olan dövlətləri belə iflic edərək dünyada gedən proseslərdə iştirak etməkdən məhrum edir, onları daxili çəkişmələrin məngənəsində boğaraq məhvə məhkum edir. Bu baxımdan Azərbaycan da işğalçı Ermənistan tərəfindən ərazilərinin 20 faizə qədəri işğal edilən ölkə kimi başqa bir acınacaqlı aqibətin sahibi ola bilərdi.

*Ardı 2-ci səh.*

# ABŞ hökuməti bizim istər neft və qaz kəmərləri, istərsə də enerji potensialımızın inkişafı ilə bağlı layihələrimizi hər zaman dəstəkləyib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyə çox şadam.

**Kurt DONNELLİ:** Biz də Sizi görməyə şadıq.

**Prezident İlham ƏLİYEV:** "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm. Bu, həqiqətən də yaxşı ənənəyə çevrilib. Biz hər il nəticələri nəzərdən keçirir və gələcək işləri planlaşdırırıq. Biz artıq yekun mərhələyə yaxınlaşan "Cənub qaz dəhlizi" layihəsinin ildən-ilə çox mühüm icrasını müşahidə edirik. Ümidvaram ki, bu ilin sonunadək bütün işlər tam yekunlaşacaq. Bildiyiniz kimi, biz layihənin açılışını mərhələli şəkildə etmişik. 2018-ci ildə Bakıda təntənəli mərasim təşkil etdik və "Cənub qaz dəhlizi"nin istismara verildiyini rəsmi olaraq elan etdik. Sonra, əlbəttə ki, TANAP-la bağlı çox mühüm tədbir oldu. Ötən ilin noyabrında TANAP artıq Avropa sərhədinə çatdı. Bu, bizə "Şahdəniz" və digər qaz yataqlarından daha çox təbii qaz ixrac etməyə imkan verəcək. Çünki bizim planımız fəaliyyətimizi genişləndirmək və hələ ki kəşfiyyat mərhələsində və ya yekun hazırlıq mərhələsində olan digər yataqlardan hasilat səviyyəsini artırmaqdır.

Beləliklə, bütün işlər qrafikə uyğun gedir. Mən bu mühüm layihənin icrasında göstərdiyi davamlı dəstəyə görə ABŞ hökumətinə minnətdarlığımı bildirmək istərdim. Bilirəm ki, Prezident Tramp şəxsən prosesdə iştirak edir. Onun fəal təmasları və iştirakı bizim əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu. Hazırda biz heç bir başqa maneə görmürük. Qarşıdakı yol çox aydındır. Əminəm ki, səmərəli əməkdaşlığımız gələcəkdə davam edəcək, çünki ABŞ hökuməti bizim istər neft və qaz kəmərləri, istərsə də enerji potensialımızın inkişafı ilə bağlı layihələrimizi hər zaman çox dəstəkləyib. Bir daha xoş gəlmisiniz.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnelli ilk dəfə Bakıya 2004-cü ildə gəldiyini, ötən dövr ərzində paytaxtımızda həyata keçirilən böyük inkişaf proseslərinin şahidi olduğunu vurğuladı. "Cənub qaz dəhlizi"nin əhəmiyyətinə toxunan Kurt Donnelli bu layihənin tamamlanma mərhələsinə daxil olması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Kurt Donnelli "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində Bakıda keçiriləcək nazirlərin altıncı toplantısının əhəmiyyətinə toxundu və bu formatda aparılan müzakirələrin önəmini qeyd etdi.

Görüşdə son dövrlərdə Azərbaycanda alternativ enerji mənbələrinin inkişafına dair fikir mübadiləsi aparıldı.

## "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 826; 2006, № 9, maddə 743; 2014, № 9, maddə 1027; 2015, № 3, maddə 286; 2016, № 7, maddə 1282; 2017, № 8, maddə 1521; 2018, № 8, maddə 1779; 2019, № 11, maddə 1751) 3-cü hissəsinin "Komissiyanın üzvləri" bölməsində "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri" sözləri "Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri" sözləri ilə, "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri" sözləri "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə YUNESKO-ya bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 fevral 2020-ci il*

# Azərbaycan Prezidentinin İtaliya səfəri ölkəmizin Avropadakı mövqe və nüfuzunu daha da gücləndirmişdir

*Əvvəli 1-ci səh.*

Lakin həlli dalana dirənən münaqişənin fəsadlarına baxmayaraq, Azərbaycan sürətlə inkişaf edir, dünyada müxtəlif sahələrdə liderlik qazanır, sabit və sülhsevər imicini gücləndirir, ərazisinə görə dünyada 117-ci yerdə olsa da, uğurlarına görə birinci yerlərdə adı çəkilir. Bu baxımdan səfər zamanı Azərbaycanın dövlət başçısına xüsusi diqqətin göstərilməsi o deməkdir ki, İtaliya kimi qarşıladığını çox yaxşı bilirdi.

Bəli, İtaliyada Azərbaycan Prezidenti və Birinci vitse-prezidentinə göstərilən bu ehtiram məhz dövlətimizin dünya miqyasında qazandığı böyük nailiyyətlərə verilən qismətin təzahürüdür. Prezident İlham Əliyevin italiyalı həmkarı Sercio Mattarella ilə təkbətək və geniş tərkibdə, eləcə də İtaliya Respublikası Nazirlər Şurasının sədri Cüzeppe Konte, İtaliya Parlamentinin Senatının Sədri Maria Elisabetta Alberti Kaselatti və Deputatlar Palatasının Sədri Roberto Fiko ilə keçirdiyi görüşlər Azərbaycanın dünya siyasətinə uğurlu inteqrasiyasını əyani təsdiq edir.

Səfər çərçivəsində iki ölkə arasında siyasi, müdafiə, iqtisadi-ticarət, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəni, elmi, turizm, idman sahələrini əhatə edən 28 sənədin imzalanması İtaliyanın qarşılıqlı əməkdaşlığa sonsuz marağından irəli gəlir. Romadakı Kuirinale Sarayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə verilən dövlət ziyafətində hər iki prezidentin çıxışlarında iki ölkə arasındakı strateji tərəfdaşlıq münasibətlərinin inkişafının vacibliyinin vurğulanması, eləcə də səfərin ikinci günü Azərbaycan-İtaliya biznes forumunun keçirilməsi məhz qarşılıqlı münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir.

Bu dövlət səfəri belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan dünyanın aparıcı ölkələri ilə ikitərəfli əlaqələri yüksək səviyyədə qura bilən və bu əlaqələri inkişaf etdirmək gücünə qadir olan sivil və güclü dövlətdir. Dünyanın siyasi müstəvisində qazandıqlarımız, daxili ictimai sabitlik, dinamik inkişaf ona imkan verir ki, biz istənilən aparıcı ölkə ilə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirək. Bu mənada Azərbaycan və İtaliya arasındakı əlaqələr nümunə ola bilər. Çünki İtaliya Azərbaycanın strateji tərəfdaşı kimi həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə Azərbaycanla sıx əməkdaşlıq edir. İtaliya, həmçinin Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığının güclənməsinə fəal dəstək verən ölkə kimi də tanınır.

Bu qənaətimizin davamı kimi qeyd edək ki, səfər çərçivəsində iki dövlət başçısı tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" əməkdaşlığın yeni yüksək səviyyəyə adlamasını şərtləndirən mühüm sənəddir. İlk dəfə xarici dövlətlə, xüsusən də "Böyük Yeddilik"ə üzv olan ölkə ilə belə bir bəyannamənin imzalanması ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir. Bu sənəddə tərəflər bir-birini strateji tərəfdaş kimi qəbul edir və bütün istiqamətlərdə əlaqələrin daha da gücləndirilməsi istəyini ortaya qoyurlar. Birgə Bəyannamədə tərəflər bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək ifadə edirlər.

İkinci vacib bir məqam ondan ibarətdir ki, bu günlərdə baş tutmuş Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirədə Azərbaycan Prezidenti tarixi çıxışı ilə Ermənistan diplomatiyasına öldürücü zərbə endirdi. Məhz İlham Əliyevin diplomatiyası sayəsində Paşinyanın "qalib qiyafəsində" Münxendən dünyaya demokratiya dərsi vermək, hamını öyrətmək cəhdləri ağır məğlubiyyətlə nəticələndi. Münxen uğursuzluqları ilə Yerəvana dönən baş nazir bütün yerli siyasi qüvvələrin və partiyaların qəzəbinə tuş gəldi. Paşinyanın Xocalı soyqırımını Münxendə Mütəllibovun, Yerevanda isə rusların 366-cı alayının üstünə atması, Njdeni müdafiə etməsi və ən başlıcası, Azərbaycan Prezidentinin ifşaedici zərbələri onu gülüş hədəfinə çevirdi.

İndi Paşinyan aldığı zərbələrdən özünə gəlməyə cəhd edir, Azərbaycan isə beynəlxalq aləmdə daha bir diplomatik qələbənin uğurunu yaşayır. Avropa İttifaqının aparıcı üzv ölkəsinin Baş Naziri ilə imzalanan strateji sənəddə münaqişə ilə bağlı Azərbaycanın mövqeyini əks etdirən müddəaların qəbul edilməsi Azərbaycan Prezidentinin növbəti əhəmiyyətli qələbəsidir.

Yeri gəlmişkən qeyd edək ki, İtaliya özü də ATƏT-in Minsk Qrupunun üzvlərindən biri kimi Minsk prosesi çərçivəsində fəaldır. Onu da qeyd edək ki, vaxtilə ATƏM-in Minsk Konfransının və sonradan ATƏT-in Minsk qrupunun ilk sədri də məhz italiyalı diplomat Mario Rafaelli olmuşdur. Bir sözlə, İtaliya ilə imzalanmış Birgə Bəyannamədə əks olunan istər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, istərsə də digər məsələləri əhatə edən müddəalar Avropa İttifaqı ilə Azərbaycan arasında yeni tərəfdaşlıq sazişinin möhkəm özülü rolunu oynamağa qadirdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Möhkəm təməl üzərində qurulan əbədi qardaşlıq

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri, imzalanan 14 yeni saziş çoxşaxəli Azərbaycan-Türkiyə əlaqələrinə yeni dinamizm gətirəcək

*Əvvəli 1-ci səh.*

Fevralın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri, Prezident İlham Əliyevlə keçirdiyi görüş, səsləndirilən bəyanatlar, imzalanan yeni sazişlər onu deməyə əsas verir ki, iki qardaş ölkə arasında hərtərəfli münasibətlər getdikcə daha da güclənəcək.



### İnkişafda olan münasibətlər, birgə reallaşdırılan qlobal layihələr

Rəsmi protokola uyğun olaraq öncə dövlət başçıları arasında təkbətək görüş oldu və prezidentlər ikitərəfli dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini qeyd edərək həyata keçirilən birgə qlobal layihələrin əhəmiyyətindən söz açdılar.

Prezident İlham Əliyev qardaş ölkənin liderinin Azərbaycana səfərinin Azərbaycanla Türkiyə arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi işinə böyük töhfə verəcəyini söylədi.

Dövlət başçılarının iştirakı ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında isə qeyd edildi ki, bu toplantı əlaqələrin gələcək inkişafı üçün çox önəmli olacaq.

Prezident İlham Əliyev bu toplantıda qəbul ediləcək qərarların, eyni zamanda, imzalanacaq ikitərəfli sənədlərin münasibətləri böyük dərəcədə gücləndirəcəyini vurğulayaraq ötən ilki əlaqələrin uğurlu nəticələrini yüksək qiymətləndirib. Dövlət başçısı siyasi, iqtisadi, enerji, nəqliyyat, ümumiyyətlə, bütün sahələrdə çox böyük nailiyyətlərin əldə edildiyini deyərək diqqətə çatdırdı ki, onların arasında TANAP layihəsinin Avropa sərhədinə çatdırılması mərasimi xüsusi önəm kəsb edir.

Cəbhə xəttində şəhid olan iki əsgərimizə görə Azərbaycan xalqına başsağlığı verən Rəcəb Tayyib Ərdoğan isə cənab İlham Əliyevlə Türkiyə-Azərbaycan əlaqələrini dərin təfərrüatı ilə müzakirə etdiklərini vurğuladı.

### "Qarabağ Azərbaycandır və nida" fikrinin altında Türkiyə imzası

Türkiyə Prezidenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı həm özünün, həm də ölkəsinin mövqeyini qısa xatırlatma ilə bir daha bəyan etdi. Ötən il Prezident İlham Əliyevin Soçidəki "Valday" forumunda çıxışını xatırladan Rəcəb Tayyib Ərdoğan - "Keçən il qardaşım Əliyev "Qarabağ Azərbaycandır və nida" deyərək fikrini açıq şəkildə ifadə etmişdir. Türkiyə olaraq bu ifadənin altına biz də imzamızı qoyaraq buradan təkrar etmək istəyirəm", - deyə qeyd etdi. Bu fikir işğalçı Ermənistan və onun havadarlarına ünvanlanmış mesaj idi.

Türkiyə Prezidenti fevralın 9-da Milli Məclisə keçirilən seçkilərin nəticələrinə də toxundu. Əldə edilən nəticənin xüsusilə Azərbaycan üçün xeyirli olmasını diləyən dövlət başçısı bildirdi ki, Türkiyə bu seçkilərin əmin-amanlıq və sabitlik şəraitində başa çatdırılmasından böyük məmnunluq və xoşbəxtlik duyub.

Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi və siyasi islahatları da yaxından izləyən Rəcəb Tayyib Ərdoğan bütün sahələr üzrə təcrübəsini bölüşməyə hazır olduğunu diqqətə çatdırdı.

Türkiyə Prezidenti birgə həyata keçirilən layihələrin əhəmiyyətini də dəyərləndirdi: "Təbii ki, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, "Star" neft emalı zavodu kimi nəhəng layihələrə birlikdə imza atdıq. İndi əsas hədəf təxminən 4,5 milyard dollar olan ticarət dövriyyəmizi 2019-cu ildə müəyyənləşdirdiyimiz kimi 15 milyard dollara çatdırmaqdır. Bu məsələdə də qardaşımla razılıq əldə etdik".

### İki ölkə arasında 14 yeni sənəd imzalandı

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası başa çatdıqdan sonra prezidentlərin iştirakı ilə iki ölkə arasında yeni sənədlər imzalandı, sazişlər təsdiqləndi.

Öncə dövlət başçıları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasının Protokolu"nu imzaladılar.

Sonra AZPROMO ilə Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK) arasında əməkdaşlığa dair 2020-2021-ci illəri əhatə edən Fəaliyyət Planı"nı, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Türkiyə Respublikası Prezidenti Administrasiyasının Rəqəmsal Transformasiya Ofisi arasında inteqrasiya olunmuş xidmətlər mərkəzinin və dövlət xidmətlərinin rəqəmsallaşdırılması üçün texniki infrastrukturun yaradılması haqqında Anlaşma Memorandumu", "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkiyə Radio Televiziya Qurumu arasında əməkdaşlıq Protokolu", "2013-cü il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokol" imzalandı.

Həmçinin "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi", "2012-ci il sentyabrın 11-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki tənzimləmə, standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və metrologiya sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun icrasına dair 2020-2022-ci illər üzrə Fəaliyyət Planı", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Türkiyə Rəqabət Qurumu arasında rəqabət siyasəti sahəsində əməkdaşlıq Protokolu", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi-maliyyə əməkdaşlığı haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında maliyyə yardımının tətbiqi haqqında Protokol", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı vizadan azadetmə haqqında Saziş" təsdiqləndi.

Beləliklə, bu səfər zamanı Azərbaycan və Türkiyə arasında 14 yeni sənəd imzalandı və bu sazişlərin hər biri qardaş ölkələrin iqtisadi-ticari əlaqələrinin daha da gücləndirilməsinə imkan yaradacaq.

### 30,5 milyard dollarlıq qarşılıqlı sərmayə

Prezidentlərin mətbuata bəyanatlarında isə dövlət başçısı İlham Əliyev iki ölkə lideri arasında aparılan danışıqların, imzalanan sənədlərin əhəmiyyətini vurğuladı və iqtisadi münasibətlərə toxundu: "Türkiyə-Azərbaycan əlaqələrinə yeni təkan verilir və bu əlaqələr bu gün ən yüksək zirvədədir. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII toplantısı bir daha onu göstərdi ki, bizim fikirlərimiz bütün məsələlərdə birdir, niyyətimiz, amalımız da birdir. Bu da ondan ibarətdir ki, Türkiyə-Azərbaycan dostluq-qardaşlıq əlaqələri bundan sonra da uğurla inkişaf etsin və bütün sahələri əhatə etsin".

Türkiyənin dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkə olduğunu deyən Prezident İlham Əliyev bu birliyin əbədi olduğunu söylədi və qeyd etdi ki, iki qardaş ölkə öz gələcəyini bu möhkəm təməl üzərində qurur.

Onu da vurğulayaq ki, hər iki ölkənin nəqliyyat sahəsində də böyük nailiyyətləri var. Birlikdə həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu uğurla fəaliyyət göstərir. İmzalanan yeni sazişlərdən biri də dəmir yoluna aid sənəd idi. Bu sazişə əsasən Qars-Naxçıvan dəmir yolunun tikintisinə başlanılacaq.

Cənab İlham Əliyev iki ölkə arasındakı iqtisadi-ticari əlaqələrə nəzər yetirdi və gələcək hədəfləri dəyərləndirdi:

*- 2019-cu ildə ticarət dövriyyəsi 33 faiz artaraq 4,5 milyard dollara çatıb;*

*- hazırda Azərbaycanda 4 minə yaxın Türkiyə şirkəti fəaliyyət göstərir;*

*- Türkiyə şirkətləri 300-dən çox layihədə 16 milyard dollar həcmində iş görüblər;*

*- Azərbaycan Türkiyə iqtisadiyyatına 18, Türkiyə Azərbaycana 12,5 milyard dollar sərmayə qoyub;*

*- hədəf ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaqdır.*

Əlbəttə ki, imzalanan yeni sənədlər, o cümlədən preferensial ticarət sazişi iki ölkə arasındakı ticarət dövriyyəsinin artırılmasına böyük təkan verəcək.

### Türkiyə Azərbaycanın uğurları ilə fəxr edir

Türkiyə Prezidenti bəyanatında dedi ki, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII toplantısı və imzalanan sənədlər irəliyə doğru bir addım oldu. Siyasi sahədə həmrəylik ən yüksək səviyyədə davam edir və bu həmrəylik daha da inkişaf etdiriləcək.

Sonra Rəcəb Tayyib Ərdoğan Azərbaycanın son illərdə qazandığı nailiyyətlərdən söz açaraq vurğuladı ki, həqiqətən də Prezident İlham Əliyevin uzaqgörən liderliyi ilə xüsusilə Azərbaycanın, bölgəmizin rifahı və sabitliyi göz önündədir. Bu, özünü çox aydın şəkildə göstərməkdədir.

Fevralın 9-da Milli Məclisə keçirilən seçkilərin Azərbaycan üçün xeyirli olmasını diləyən Türkiyə Prezidenti Azərbaycanın uğurları ilə fəxr etdiyini vurğuladı. Onun fikrincə, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil. Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. İnfrastrukturu, quruculuğu ilə daim inkişaf edən, dəyişən bir Azərbaycan var. Təbii ki, burada Azərbaycan iqtisadiyyatının keçən il əldə etdiyi inkişaf islahatlar prosesinin nə qədər doğru olduğunu da ortaya qoymaqdadır. Bu inkişaf bundan sonra da artmaqda davam edəcək.

İki ölkə arasında 14 sazişin imzalandığını xatırladan Rəcəb Tayyib Ərdoğan bu sənədlərin hər birinin önəmli olduğunu qeyd etdi. Türkiyə Prezidenti isə hesab edir ki, onların sırasında bir saziş xüsusi önəm kəsb edir: "Bunların arasında ən önəmlisi, əlbəttə, preferensial ticarət sazişidir ki, bu da işin iqtisadi tərəfini təşkil edir. Gömrükdən kənd təsərrüfatına, enerjidən nəqliyyata, texnologiyadan turizmə qədər hər sahədə əməkdaşlığımızı dərinləşdirəcəyik. Bundan başqa, rəqəmsal dövlət xidmətləri sahəsində, sərmayə bazarında, maliyyə sektorunda da yeni əməkdaşlıq imkanlarını araşdıracağıq. Amma bundan başqa, siyasi sahədə xüsusilə önəmli bir addım Naxçıvan və Türkiyə arasındakı dəmir yolu məsələsidir. Bu, Naxçıvanın inkişafı baxımından çox önəmlidir".

Əlavə edək ki, imzalanan sazişlər içərisində mühüm bir sənəd də var ki, bu da Naxçıvandan sərhədə qədər, eyni qaydada, İğdırdan da sərhədə qədər təbii qaz kəmərinin çəkilməsi ilə bağlıdır. Beləliklə, təxminən 160 kilometrlik kəmərin çəkilməsi ilə Naxçıvan təbii qazla bağlı daha əlverişli imkan əldə edəcək. Yəni həm İrandan, həm də Türkiyədən dəstək almaqla bu məsələdə daha güclü bir vəziyyətə gələcək.

Türkiyə Prezidenti bunun da enerji sahəsində çox önəmli hadisə olduğunu hesab edir.

### Xocalıda XX əsrin ən böyük vəhşətlərindən biri törədilib

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində işğalçı ölkənin heç bir danışığa məhəl qoymamasına münasibət bildirən Rəcəb Tayyib Ərdoğan dedi ki, mərhum xalq şairi Bəxtiyar Vahabzadənin "Anam" dediyi Qarabağ Azərbaycan qədər Türkiyənin də məsələsidir. Dağlıq Qarabağ probleminin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll edilməsi ən böyük arzudur:

"Türkiyə hər zaman Azərbaycana bu haqlı mübarizəsində verdiyi dəstəyi bundan sonra da davam etdirəcək. Minsk qrupunun bu məsələdə təəssüf ki, səmimi davranmadığını da açıq şəkildə ifadə edirəm. Çünki təxminən 25 il vaxt itirilib. Nə üçün və nəyə görə heç bir nəticəyə nail olunmur. Təbii ki, bunun üzərində də dayanmaq lazımdır. Xocalı qətliamının 28-ci ildönümüdür. Xocalıda insanlığın gözləri önündə məsum, yaşlı, qadın, uşaq demədən XX əsrin ən böyük vəhşətlərindən biri törədilmişdir. 106-sı qadın, 63-ü uşaq olmaqla 613 soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmişdir. Tarixə "qara gecə" olaraq düşən Xocalı qətliamını unutmadıq, unutmayacağıq. Azərbaycanlı qardaşlarımın, qarabağlı köçkünlərin də Xocalını közərən od kimi ürəklərində daşıdığını bilirəm. İyirmi səkkizinci ildönümündə Xocalı qətliamını törədənləri bir daha şəxsən öz adımdan və millətim adından lənətləyirəm".

Göründüyü kimi, dünyanın siyasi arenasında yerini və çəkisini möhkəmləndirən Azərbaycan qardaş Türkiyə Respublikası ilə çoxşaxəli münasibətlərini inkişaf etdirməkdədir. Əminliklə deyə bilərik ki, dövlət başçısı arasında aparılan danışıqlar, imzalanan mühüm sazişlər hər iki ölkəyə böyük siyasi və iqtisadi dividendlər gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# “İlham Əliyevin liderliyi ilə Azərbaycanın rifahı göz önündədir”

## Prezidentlərin Bakı görüşü Türkiyə KİV-in əsas gündəm mövzusu oldu

**Etibarlı strateji tərəfdaşlar olan Azərbaycan və Türkiyə arasında qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsi bu gün ölkələrimizin təkcə mövcud olduqları regionda yox, onun sərhədlərindən kənarda da əsas söz sahiblərindən biri kimi çıxış etməsinə səbəb olmaqdadır.**

Siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da inkişafı Azərbaycana və Türkiyəyə yeni uğurlar vəd edir. Heç şübhəsiz ki, prosesin bu şəkildə vüsət almasına, bütün sahələrdə əlaqələrin dinamik inkişaf edərək strateji tərəfdaşlıq münasibətləri kimi yüksək səviyyəyə çatdırılmasında bu gün liderlər amili də əsas rol oynayır.

İstər Azərbaycan Prezidenti İlham Əliyevin, istərsə də Türkiyədən olan həmkarı Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdiyi diqqət və önəm iki ölkənin münasibətlərini daha möhkəm özüllər üzərində qurur.

Bu günlərdə R.Ərdoğanın Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında iştirak etmək üçün ölkəmizə səfəri və Prezident İlham Əliyev ilə görüşü Türkiyə KİV-in xüsusi diqqət mərkəzində yer alıb. Bu barədə onlarla teleşirkət, qəzet və internet portalı xəbərlər paylaşıblar.

**“Akşam”:**
**“Hər sahədə birlik”**

“Akşam” qəzetinin “Hər sahədə birlik” başlıqlı xəbərində bildirilib ki, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Mərasimdən sonra İlham Əliyev və R.Ərdoğan mətbuata verdikləri açıqlamalarla bir sıra maraqlı məqamları diqqətə çatdırıblar.

R.Ərdoğanın “Prezident İlham Əliyevin uzaqgörən liderliyi ilə xüsusilə Azərbaycanın, bölgəmizin rifahı və sabitliyi göz önündədir. Bu, özünü çox aydın şəkildə göstərməkdədir. Bundan sonra da bunun davamını görəcəyimizə inanıram. Biz Azərbaycanın uğurları ilə fəxr edirik. Bundan sonra bu uğurlara yeni nailiyyətlərin əlavə olunacağına da heç bir şübhəmiz yoxdur” fikrinə yer ayıran qəzet qeyd edib ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf etməyə, güclənməyə, bölgənin sabitlik zirvəsi kimi parlamağa davam edəcək.

**“Yeni Akit”:**
**“Qardaş Azərbaycanın yanındayıq “**

“Yeni Akit” qəzetinin “Qardaş Azərbaycanın yanındayıq” başlıqlı xəbərində R.Ərdoğanın fikirlərinə geniş yer verilərək vurğulanır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir: “Biz Azərbaycanın uğurları ilə fəxr edirik. Bundan sonra bu uğurlara yeni nailiyyətlərin əlavə olunacağına da heç bir şübhəmiz yoxdur. Düşünürəm ki, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil. Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. İnfrastrukturu, quruculuğu ilə daim inkişaf edən, dəyişən bir Azərbaycan var”. Xüsusi olaraq o da vurğulanır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında ədalətli həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

**“Sabah”:**
**“Hədəf 15 milyard dollarlıq ticarət dövriyyəsi”**

“Sabah” qəzeti isə “Hədəf 15 milyard dollarlıq ticarət dövriyyəsi” başlıqlı məqaləsində yazır ki, Azərbaycan məhz Prezident İlham Əliyevin fəaliyyəti ilə həm iqtisadiyyatını, həm də ordusunu xeyli gücləndirib. Azərbaycan Prezidentinin “Qarşıya hədəf qoyulub ki, ticarət dövriyyəsi 15 milyard dollara çatsın. Hesab edirəm ki, bu, mümkündür. Çünki keçən il ticarət dövriyyəmiz 33 faiz artıb və 4,5 milyard dollara çatıb” fikirlərinin yer aldığı xəbərdə bildirilib ki, imzalanmış sənədlər, preferensial ticarət anlaşması hər iki ölkə arasındakı ticarət dövriyyəsinin artırılmasına böyük təkan verəcəkdir.

**“Türkiye”:**
**“Qarabağ bizim də məsələmizdir”**

“Türkiye” qəzetinin “Qarabağ bizim də məsələmizdir” başlıqlı xəbərində Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini diqqətə çatdırıb. Bildirib ki, Bəxtiyar Vahabzadənin “Anam” dediyi Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir. Dağlıq Qarabağ probleminin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll edilməsi ən böyük arzumuzdur.

**“Yeni Şafak”:**
**“Ərdoğan Əliyevə təsbeh hədiyyə etdi”**

“Yeni Şafak” qəzeti “Ərdoğan Əliyevə təsbeh hədiyyə etdi” adlı xəbərini manşetdən verib. Bildirilib ki, siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da çevik inkişafı Azərbaycan və Türkiyəyə yeni-yeni uğurlar vəd edir.

Hər iki dövlət başçısının açıqlamalarını diqqətə çatdıran qəzet R.Ərdoğanın “Dörd bir tərəfimizdə münaqişələr, terror və asayiş problemləri yaşandığı bir vaxtda Türkiyə və Azərbaycan bir sabitlik abidəsi olaraq yüksəlirlər” fikirlərinə geniş yer ayırıb: “Şübhəsiz ki, buna görə sarsılmaz əlaqələrimiz qədər, güclü ordularımıza da borcluyuq. Bu mənada istər ordularımızın həmrəyliyi, istərsə də müdafiə sənayesi sahəsində atdığımız addımlar da gələcəkdə müstəqilliyimizin ən böyük təminatı olacaqdır”.

Prezident İlham Əliyevin “Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın yorulmaz fəaliyyəti nəticəsində Türkiyə bu gün dünya çapında güc mərkəzidir” fikrini oxuculara çatdıran qəzet qeyd edib ki, Azərbaycanda Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırlar: “Nəinki yerləşdiyi bölgədə, dünyada Türkiyənin iştirakı olmadan heç bir məsələ öz həllini tapa bilmir və yaxın tarix bunu göstərdi. Biz buna çox sevinirik, çünki Türkiyənin gücü bizim gücümüzü artırır. Bizim gücümüzün birləşdirilməsi bizi daha da güclü edir”.

**“Milliyet”:**
**“Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdü”**

“Milliyet” qəzetinin hər iki prezidentin fikirlərinin yer aldığı “Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdü” başlıqlı məqaləsində qeyd edilib ki, dövlət başçıları görüşdə ölkələr arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər. Bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər də müzakirə olunub.

**“TRT Haber”:**
**“Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ən böyük arzumuzdur”**

“TRT Haber” kanalı dövlət başçılarının görüşünü “Ərdoğan: Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ən böyük arzumuzdur” sərlövhəsi ilə çatdırıb. Bu xəbərdə Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyənin ədalətli və qardaş mövqeyinə dair fikirləri yer alıb. Kanal Türkiyə Prezidentinə istinadla yazır: “Azərbaycana bu haqlı mübarizəsində verdiyimiz dəstəyi bundan sonra da davam etdirəcəyik. Minsk qrupunun bu məsələdə təəssüf ki, səmimi davranmadığını da açıq şəkildə ifadə edirəm. Çünki təxminən 25 il vaxt itirilib. Nə üçün və nəyə görə heç bir nəticəyə nail olunmur. Təbii ki, bunun üzərində də dayanmaq lazımdır”.

“Anadolu” Xəbər Agentliyinin isə “Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdü” başlıqlı xəbərində qeyd olunur ki, söhbət zamanı dövlət başçıları Türkiyə və Azərbaycanın bütün məsələlərlə bağlı bir-birinin yanında olduqlarını diqqətə çatdırıblar.

Məşhur “NTV” kanalının isə “Yeni 15 milyard dollarlıq ticarət dövriyyəsi” başlıqlı xəbərində deyilir ki, Azərbaycan Türkiyə iqtisadiyyatına 18 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12,5 milyard dollar sərmayə qoyub. Bu, böyük ölçüdə sərmayənin qoyuluşu bir daha hər iki ölkə arasında qardaşlığı təsdiqləyir.

“Haber Global”, “Habertürk” kanallarında, “medyaege.com”, “internethaber.com”, “msn.com”, “gundemkibris.com”, “bursahaber.com” və s. xəbər agentliklərində dərc edilən xəbərlərdə də R.Ərdoğanın Azərbaycana səfəri xüsusi olaraq qeyd edilib. Bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir. Azərbaycan Prezidenti isə Türkiyənin ən yaxın və səmimi dostudur.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***




# *Dövlət BAXÇALI:* “Xocalı türkün yurdudur, türkün qürurudur, işğalçılar sonsuza qədər lənətlənmişdir”

*Əvvəli 1-ci səh.*

Bu fikirləri Türkiyənin Milliyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı Türkiyə Böyük Millət Məclisində partiyasının deputat fraksiyasının iclasında səsləndirib.

Xocalı soyqırımına geniş şəkildə toxunan partiya rəhbəri öncə Dağlıq Qarabağın tarixi türk yurdu olduğunu xatırladaraq bu torpaqların 28 ildir Ermənistan tərəfindən işğal altında saxlanıldığını vurğulayıb.

Dövlət Baxçalı qeyd edib ki, Dağlıq Qarabağ, Azərbaycanda Kür və Araz çayları ilə Ermənistanın sərhədləri daxilində yerləşən Göyçə gölü arasında yer alan, Qərbdə Ermənistan, Cənubda İran sərhədlərinə yaxın olan məkanın adıdır və bu yerlər qədim türk yurdudur. Dağlıq Qarabağ şimaldan cənuba 120 kilometr, şərqdən-qərbə 35-60 kilometr uzunluğundakı dağ və obalardan ibarət ərazidir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələrinin və sovet ordusuna məxsus 366-cı motoatıcı alayın Xocalıda həyata keçirdikləri qətliamı ötən əsrin ən vahiməli, dəhşətli hadisələrindən biri adlandıran MHP sədri deyib ki, rəsmi məlumata görə, 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaq üzrə 613 soydaşımız Xocalıda qətlə yetirilib. 76 uşaq olmaqla 487 nəfər ağır yaralanıb. 1275 nəfər əsir götürülüb. Bunların 150-sindən hələ də xəbər yoxdur. Digər məlumatlara əsasən ümumilikdə şəhid olanların sayı 1300 nəfərdir.

MHP sədrinin fikrincə, Xocalı qətliamı Qarabağ müharibəsinin yaşandığı bölgələrdə böyük narahatçılıq yaratdığı üçün insanlar bu qətliamdan qorxaraq öz doğma torpaqlarını tərk etmək məcburiyyətində qalıblar. Bunun nəticəsində ermənilər qanunsuz və həyasız şəkildə Şuşanı, Laçını, Ağdamı, Kəlbəcəri, Qubadlını, Zəngilanı, Cəbrayılı, Füzulini işğal ediblər. 1 milyon Azərbaycan türkü öz doğma torpağını tərk etmək məcburiyyətində qalıb.

BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etmələri ilə bağlı qətnaməsini yada salan MHP sədri hesab edir ki, Sovet İttifaqı dağıldıqdan sonra “böyük Ermənistan” xülyasına düşən Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan türk düşmənçiliyini yeni bir mərhələyə gətirərək müasir dünyanın gözü qarşısında Dağlıq Qarabağın işğalı siyasətini yürütdü. Azərbaycan ərazisinin beşdəbirini işğal edən Ermənistan hələ də




qədim türk yurdundan geri çəkilməyib və hərbi işğala son qoymaq niyyətində deyil.

“Bu gün Dağlıq Qarabağ inləyir. ATƏT-in Minsk qrupu və başqa beynəlxalq təşkilatlar bununla bağlı ədalətli qərar qəbul edə bilmirlər. Xocalıda soyqırımı aktı, insanlığa qarşı dəhşətli qətliam baş verib. Ancaq beynəlxalq birlik tərəfindən bu qətliam hələ də soyqırımı aktı kimi tanınmayıb. Bu qətliam beynəlxalq hüquqi qiymət almalı və qərarlar dərhal icra olunmalıdır”, - deyə Dövlət Baxçalı vurğulayıb.

MHP sədri deyir ki, qondarma “erməni soyqırımı”nı əldə əsas tutaraq Türkiyəyə qarşı siyasi və diplomatik təhdid maşınına çevrilən ölkələrin ədalətə bir az da olsa sayğıları varsa, insan haqlarına az da olsa bağlılıqları mövcuddursa, Xocalıda axan qanın hesabını insan cəlladlarından soruşsunlar: “Xocalı türkündür, Dağlıq Qarabağ türkündür, Qarabağın hər qarışında türkün xatirəsi, silinməyəcək ayaq izləri var. Ermənistan və onun dəstəkçiləri tarixi gerçəkləri silahla, zor gücü ilə, qan tökərək əsla dəyişdirə bilməyəcəklər. Hesab günü gəldiyində qarşılarında türk millətinin qüdrətini görəcəklər. Xocalı türkün yurdudur, türkün qürurudur, işğalçılar sonsuza qədər lənətlənmişdir”.

Azərbaycan və Türkiyənin tarixin bütün zamanlarında qardaş ölkələr olduğunu, dar gündə bir-birinə dəstək verdiklərini söyləyən Dövlət Baxçalı deputat fraksiyası qarşısında Xalq şairimiz Bəxtiyar Vahabzadənin “Azərbaycan-Türkiyə” şeirini səsləndirərək qeyd edib ki, Türkiyə-Azərbaycan arasındakı can, qan və qardaşlıq bağı əbədi var olacaq.

Çıxışının sonunda MHP sədri fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkilərində qalib gəlmiş hakim Yeni Azərbaycan Partiyasını və təşkilatın sədri Prezident İlham Əliyevi təbrik edib.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# BMT-nin İnsan Hüquqları Şurasının 43-cü sessiyasının yüksəksəviyyəli seqmentində Ermənistan-Azərbaycan münaqişəsindən danışılıb

Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini Ramiz Həsənov Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının 43-cü sessiyasının yüksəksəviyyəli seqmentində çıxış edib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.






Nazir müavini deyib ki, bu il Birləşmiş Millətlər Təşkilatı 75 illik yubileyini qeyd edir. Dözümsüzlük, nifrət motivli çıxışlar, miqrasiya, məcburi köçkünlük və iqlim dəyişikliyi kimi məsələlərin həlli BMT-nin yenə də əvəzolunmaz dəyərini və eyni zamanda, daha güclü bir təşkilata ehtiyac olduğunu nümayiş etdirir. Azərbaycan BMT-nin tərəfdarıdır və təşkilatın İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə əməkdaşlığın artırılmasına sadiqdir. Son illərdə komissarlıqla tərəfdaşlığımızı gücləndirmişik. Ölkəmiz İnsan Hüquqları Şurası ilə, o cümlədən xüsusi prosedurlar mandatına sahib olanlarla fəal şəkildə iş aparır. Komissarlığın lazımi texniki yardımın göstərilməsi ilə bağlı vacib işinə dəstək olmaq üçün Azərbaycan bu il könüllü töhfələrini artıracaq.

Ramiz Həsənov qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə öz prioritetlərini Bandunq prinsipləri ətrafında quracaq və xüsusən də bütün insan hüquqlarının universallığını, bölünməzliyini və qarşılıqlı asılılığını müdafiə edəcək. Bütün insan hüquqlarının və əsas azadlıqların təşviqi və qorunması üçün konstruktiv bir yanaşmanın qəbul edilməsinin vacibliyini də vurğulayırıq və bu baxımdan bütün dövlətləri bir-biri ilə səmimi dialoqa və əməkdaşlığa yönəltməyə çağırırıq.

“Hazırda Azərbaycanda demokratiyanın, qanunun aliliyinin daha da möhkəmləndirilməsinə, insan hüquqlarının təşviqi və qorunmasına yönəlmiş genişmiqyaslı və uzunmüddətli islahatlar aparılır. 9 fevral parlament seçkiləri Azərbaycanın daha da demokratik inkişafı yolunda növbəti vacib addımı təşkil edir. Seçkilərdə bugünədək ən çox qeydə alınan namizəd oldu, o cümlədən qadın namizədlərin sayında ciddi artım baş verdi. Əvvəlki seçkilərdə olduğu kimi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində öz ərazisindən zorla çıxarılmış və bununla da öz doğma şəhərlərində səs vermək imkanına malik olmayan 700 min məcburi köçkünün seçki hüquqlarının təmin edilməsi üçün 523 seçki məntəqəsi yaradılmışdı. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaşayan erməni əsilli Azərbaycan vətəndaşları səsverməyə Azərbaycan seçki orqanları tərəfindən dəvət edilmiş və onlardan bir qismi elektron səsvermə yolu ilə 9 fevral parlament seçkilərində iştirak etmişdir.

Dünən Ermənistanın xarici işlər naziri yenidən Şuradan sui-istifadə edərək beynəlxalq hüququ, o cümlədən BMT Nizamnaməsini kobud şəkildə pozaraq Ermənistanın Azərbaycana qarşı ilhaqçı siyasətinə haqq qazandırmaq məqsədilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir çox saxta və yalan dolu fikirlər səsləndirdi. Məhz bu ilhaqçı siyasət münaqişənin əsl səbəbini təşkil edir.

Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təsdiqləyən, Ermənistanın Azərbaycana qarşı güc tətbiq etməsini, ərazilərini işğal etməsini, mülki şəxslərə hücumlarını pisləyən, habelə bütün işğalçı qüvvələrin Azərbaycanın ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və digər beynəlxalq təşkilatların sənədlərinə məhəl qoymur.

Bu gün Azərbaycan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ən qaranlıq səhifələrindən biri, getdikcə daha çox ölkənin tanıdığı Xocalı soyqırımının 28-ci ildönümünü qeyd edir. 1992-ci ilin bu günü, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki bu kiçik şəhərin 613 sakini azərbaycanlı olduqlarına görə erməni hərbçiləri tərəfindən vəhşicəsinə qətlə yetirilib. Bu faktı sonradan Ermənistanın ovaxtkı prezidenti özü də etiraf edib. Bu baxımdan Azərbaycan Şuranı, onun mandat sahiblərini və Ali Komissarlığı 30 ilə yaxındır haqları pozulmuş azərbaycanlı məcburi köçkünlərin və qaçqınların insan hüquqlarının bərpası üçün prinsipial mövqe tutmağa və səmərəli tədbirlər görməyə çağırır.

Ermənistan qəsdən öz müqəddəratını təyinetmə prinsipini yalnız Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaşayan erməni etnik qrupu üçün tətbiq etməyə çağırmaqla və bu bölgədəki bütün azərbaycanlıların Ermənistan tərəfindən didərgin salındığını qəsdən gizlətməklə təhrif edir. Buna görə də “Dağlıq Qarabağ xalqı” kimi bir anlayış yoxdur, eyni bölgədəki azərbaycanlı icması ilə yanaşı, Dağlıq Qarabağın erməni icması mövcuddur. Belə olduğundan Azərbaycanın Dağlıq Qarabağ bölgəsində qondarma “seçkilər” keçirmək beynəlxalq hüquq pozuntusudur. Keçmişdə bu cür seçkilər heç vaxt beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıb və gələcəkdə də əsassız sayılacaq”, - deyə R.Həsənov qeyd edib.

Nazir müavini bildirib ki, Ermənistanın münaqişənin sülh yolu ilə həllinə “sadiqliyi” barədə bəyanatlarına baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən həqiqi marağın olmaması münaqişənin həlli prosesinə mane olur. Son Münxen Təhlükəsizlik Konfransında Ermənistanın bu münaqişə ilə bağlı saxta iddialarına cavab olaraq, Azərbaycan Respublikasının Prezidenti birmənalı şəkildə bildirdi ki, bu münaqişənin danışıqlar nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü təmin etməlidir.

Dağlıq Qarabağ bölgəsi Azərbaycanın ayrılmaz hissəsidir və bu, beynəlxalq hüquq normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən qəbul edilir və Ermənistan hökuməti qonşularına münasibətdə özünə zərər verən siyasi gündəliyinin hər hansı perspektivinin olmadığını nə qədər tez anlayarsa, Ermənistan xalqı sülh və iqtisadi inkişafdan bir o qədər tez faydalana bilər.




# XX əsrin faciəsi - Xocalı soyqırımı








## Romada Leyla Əliyevanın ideya müəllifi olduğu «Xocalı. 20 il, 10 hekayə. Bunlar həqiqət ola bilərdi...» kitabındakı hekayələr əsasında ədəbi-musiqili tamaşa nümayiş etdirilib

**Azərbaycanın İtaliyadakı səfirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə Romanın “Sala Umberto” teatrında Heydər Əliyev Fondunun vitse-prezidenti, “Xocalıya ədalət!” beynəlxalq kampaniyasının təşəbbüskarı Leyla Əliyevanın ideya müəllifi olduğu “Xocalı. 20 il, 10 hekayə. Bunlar həqiqət ola bilərdi...” kitabındakı hekayələr əsasında “10 hekayə. Bunlar həqiqət ola bilərdi...” adlı ədəbi-musiqili tamaşa təqdim olunub.**






Yerli ictimaiyyətin böyük marağına səbəb olmuş tədbirdə İtaliyanın dövlət qurumlarının nümayəndələri, parlament üzvləri, İtaliyada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, ölkənin mədəniyyət, elm, akademik dairələrinin tanınmış şəxsləri, jurnalistlər də daxil olmaqla 250-dən çox tamaşaçı qatılıb.

Qeyd edək ki, tamaşa Romada ilk dəfə 2017-ci ildə İtaliyada Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar təşkil olunmuş tədbirlər çərçivəsində nümayiş etdirilib. Həmin vaxt tamaşaçıların marağı nəzərə alınaraq tamaşa bu il də İtaliyada təşkil olunan aidiyyəti tədbirlər siyahısına daxil edilib.

Tamaşa “Bayatı Şiraz” muğamının sədaları altında Azərbaycanın dilbər diyarı olan Qarabağın müxtəlif guşələrinin, əslən Qarabağdan olan Azərbaycanın məşhur simalarının, eləcə də Qarabağın işğaldan sonrakı vəziyyətini nümayiş etdirən fotolarının nümayişindən ibarət kompozisiya ilə başlayıb.

Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə bu musiqinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 30 ildən çoxdur ki, öz doğma yurd-yuvalarından didərgin düşmüş və doğma torpaqlarına qayıtmaqdan, hətta öz yaxınlarının məzarlarını belə ziyarət etməkdən məhrum olmuş 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün, təcavüz nəticəsində həyatını itirmiş 10 minlərlə azərbaycanlının, Xocalı soyqırımının qurbanlarının haray səsi olduğunu deyib. Xocalı soyqırımını Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliyin kulminasiyası adlandıran diplomat Xocalıda baş verənlər barədə danışıb, bu hadisələri insanlıq əleyhinə cinayət adlandırıb, Xocalıda baş verənlərin bir daha təkrarlanmaması üçün beynəlxalq səviyyədə daha geniş məlumatlandırma işinin aparılmasının önəmini vurğulayıb, bu xüsusda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət!” beynəlxalq məlumatlandırma kampaniyasının əhəmiyyətindən danışıb.

Sonra “10 hekayə, bunlar həqiqət ola bilərdi...” adlı ədəbi-musiqili tamaşa göstərilib. Beynəlxalq səviyyədə tanınmış violonçelist Pierluici Ruccieronun bədii tərtibatçılığı əsasında hazırlanmış tamaşa “Xocalı. 20 il, 10 hekayə. Bunlar həqiqət ola bilərdi...” kitabındakı hekayələr və İtaliyanın müxtəlif orkestrlərinin direktoru olmuş, pianoçu Culiano Di Cüzeppenin məhz bu tamaşa üçün hazırladığı musiqi parçaları əsasında qurulub. Hekayələri aktyorlar Edoardo Oliva və Valeria Ferri səsləndirib, musiqi parçalarını isə Pierluici Rucciero, Culiano Di Cüzeppe, skripkaçı Zoltan Banfalvi, gitaraçı Luka Trabukki ifa edib. Tamaşanın səhnə tərtibatı üçün aidiyyəti kitabdakı rəsmlər, “Xocalı uşaqların gözü ilə” mövzusunda yeniyetmə rəssamların çəkdiyi şəkillər, dünyada Xocalı soyqırımı abidələri, soyqırımının beynəlxalq səviyyədə tanınmasını əks etdirən kadrlar, habelə Xocalı soyqırımı ilə bağlı ölkəmizdə və İtaliyada təşkil olunan tədbirlərin fotolarından istifadə edilib.

Tədbir İtaliya KİV-nin, o cümlədən müxtəlif televiziya kanallarının diqqət mərkəzində olub.

# Xocalı soyqırımı erməni nasizminin Azərbaycan xalqına qarşı törətdiyi 1918-ci il mart soyqırımının davamıdır

Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisinin bombalanmasında, yaşayış yerlərinin viran qoyulmasında Tsinvali və Telavi helikopter bazaları yaxından iştirak etmişdir. Cənubi Qafqaz Hərbi Dairəsinin generalı Valeri Pasrikyevin sərəncamına əsasən burada təşkil olunmuş xüsusi kurslarda helikopterləri idarə edəcək 16 erməni pilotu hazırlanmışdır. Kurs müdavimləri içərisində milliyyətcə ərəb olan və “Həmas” təşkilatından qovulmuş Zahid əl-Məhəmməd adlı birisi də olmuşdur. “Telavidə çıxan “Eskadrilya” qəzeti 1992-ci il 20 fevral tarixli sayında yazırdı ki, 1992-ci il fevralın 12-də və 16-da Rusiya Federasiyasının prezidenti B.N.Yeltsin Telavi helikopter bazasında kursu bitirmiş erməni pilotlarına yeni və dəqiq hərbi uçuşa malik “Mi-24 P” markalı helikopterlərin verilməsi haqqında RF-nin 7-ci Ordusunun Baş Komandanı, general-mayor Reuta göstəriş vermişdir. Polkovnik **Leonid Kapralovun** başçılığı ilə iki “Mi-8” helikopteri Gəncə Helikopter Zavodunda təmir olunmuşdur. Beləliklə, Xocalı istiqamətində hərbi hazırlığın təməli qoyulmuş, Dağlıq Qarabağ istiqamətində döyüşə hazır vəziyyətdə dayanmış helikopterlər üçün Bakıdan 200 ton yanacaq alınmışdır. Fevralın 17-də Zori Balayan Telavi Hərbi Bazasında ermənilərlə görüşmüş, fevralın 19-da general Reut Moskvanın 17 fevral tarixli sərəncamına əsasən, 16 erməni üçün 9 müxtəlif markalı hərbi helikopter ayırmış və fevralın 22-də həmin helikopterlər 366-cı alayın tərkibinə daxil edilmişdir. Helikopterlərin pilotları Livan, Suriya və İrəvan ermənilləri, birinin pilotu isə Zahid əl-Məhəmməd idi.

Göründüyü kimi, Xocalıya hücum üçün hər şey hazır idi. Qalırdı mərkəzin razılığını almaq. Bunun üçün ermənilər hiyləyə əl ataraq Kremlə qızışdırıcı teleqramlar göndərmişlər. Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsinə general **O.Sarkisyan** və polkovnik Ter-Qriqoryan tərəfindən 25 fevralda vurulan teleqramda bildirilirdi ki, *“...respublikanın yüksək çinli təhlükəsizlik əməkdaşları təsdiq edirlər ki, son günlərdə 4 tam diviziya və 7 briqadadan ibarət türk hərbi qüvvələri Ermənistanla sərhəddə toplaşmışdır. Ordu II Dünya müharibəsi dövründə müşahidə olunmayan hərbi döyüş hazırlığına gətirilmişdir”.*

Tarixi cinayət hazırlayanlar teleqramı B.Yeltsinin başçılıq etdiyi RF Təhlükəsizlik Şurasının iclası üçün hazırlamış və iclasa Ermənistan prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri **Aşot Manuçaryan** dəvət olunmuşdur. A.Manuçaryan müşavirədəki çıxışında gələcək planlarının bir hissəsini doloyası ilə ifadə edərək bildirmişdir ki, *“Yaxın vaxtlarda Türkiyə Azərbaycanın xahişi ilə Qarabağ münaqişəsinin həlli məqsədilə kömək edə bilər. Bu Ermənistanla sərhəddi pozmadan Azərbaycanla Naxçıvan arasında olan 11 km-lik ümumi sərhəddə baş tuta bilər. Ermənistan ərazisinin pozulması da istisna deyildir”*. Deməli, Naxçıvanı Türkiyə ilə birləşdirən sərhədin ələ keçirilməsi ermənilərin gələcək planlarının tərkib hissəsi idi.

Xocalıya ilk raket fevralın 25-də saat 16:00 da Zahid əl-Məhəmməd tərəfindən atılmışdır. Xatırladaq ki, atılan hər raket üçün 280 dollar mükafat müəyyənləşdirilmişdi. Döyüşdə fərqləndiyi üçün Zahid əl-Məhəmməd və Suren Pirimyan “Qızıl xaç” ordeni ilə təltif olunmuşdular. Zahid əl-Məhəmməd mart 3-də həlak olmuş, Ermənistanın prezidenti Serj Sarkisyanın göstərişi ilə İrəvanda Erablur hərbi qəbiristanlığında dəfn olunmuşdur.

Xocalı soyqırımında sovet ordusunun və Ermənistan silahlı qüvvələrinin zabitləri iştirak etmişlər. Doğrudur, soyqırım iştirakçılarına dair sənədlər 1992-ci il martın 1-də Cənubi Qafqaz Hərbi Dairəsinin aviasiya üzrə komandanı, general-mayor Lukaşovun əmri ilə yandırılmışdır. Ancaq polkovnik V.Savelyevin “Məxfi” arayışında meyitləri yığıb yandıran, azərbaycanlı əsirləri siraya düzüb güllələyən və bundan həzz alan rütbə sahiblərinin, əsgəri şərəfi ləkələyən 41 nəfər erməni və rus zabitlərinin adları vardır: birinci batalyon komandiri, polkovnik **Moiseyev**, II batalyon komandiri, mayor **S.Ohanyan**, III batalyon komandiri, mayor **E.A.Nabokix** və b. Soyqırımı əvvəlcədən planlaşdıran anti-Azərbaycan qüvvələri xüsusi vəhşilikləri ilə seçilənləri mükafatlandırmışlar. 13 nəfərlik Babayevlər ailəsini məhv etdiyi üçün **Çitçiyana** Fransa erməni disporu tərəfindən **150 min dollar pul və “Kilsə mükafatı”**, rus zabiti **Yevgen Qolubevə** üstündə “ASALA” yazılmış 25 qramlıq **qızıl orden və 5 min dollar, Anastas İvanova** 10 min dollar və **“Hunday”** markalı maşın hədiyyə edilmişdir.

Rus zabiti Vladimir Savelyev Dağlıq Qarabağda 02270 Nəli hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olub. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il martın 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci ilin iyul və dekab aylarında BMT-yə, Avropa Şurasına... sonda Baş Kəşfiyyat İdarəsinə “Məxfi arayış”ını təqdim edib. O, son arayışlarını “zabit Puqaçov” imzası ilə göndərib. Polkovnik erməni terror təşkilatları ilə sovet ordusunun qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək fakt və sənədlərdə, “agentura” gücü ilə əldə etdiyi informasiyalarla bütün ölüb-

(Əvvəli qəzetin 26 fevral tarixli nömrəsində)



keçənlərin şərhini verib etiraf edir: “Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy ermənilər məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə 19 səhifəlik məxfi arayışı həm Kremlə, həm MN-nə, BKİ-nin generallarına göndərdim. Oxuyun dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi... Mən Bakıdakı hadisələri də izləyirdim. Hiss olunurdu ki, prezident Ayaz Niyazoviçi aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş Ali Baş Komandandır... Azərbaycan əks-kəşfiyyatına gəlincə...qurum iflic olub”.

Fransada çıxan **“Frans katolik-ekklezya”** aylıq jurnalının 1992-ci il 12 mart nömrəsində “Hücumdan öncə” yazısını çap etdirən erməni jurnalisti Berain Siracyan yazır: *“...Xocalını gözlərimlə gördüm. Döyüşən, hər qarış torpaq uğrunda vuruşan artsaxlıların igidlikləri məni valeh etdi. Amma mən torpaq uğrunda gedən vuruşmanın bu tərzdə aparılmasının tərəfdarı deyildim... Hər yerdən qan iyi gəlirdi. Qar üstündəki, qalaqlanmış buz üstündəki kimsəsiz, sahibsiz cəsədlərdən heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmaz. Bəs sabah... Biz tənha qala bilərik... Digər tərəfdən, Xocalıda vuruşanların, erməni qardaşlarımın gözlərindəki alovun sönməyəcəyinə də şübhə yoxdur. Bu alov vətən torpağı üçün yandırılmış ocağın alovlarıdır. Belə alovlar isə heç vaxt sönmür...”*

Xocalı soyqırımı haqqında dünya ictimaiyyətinə yalan məlumatlar verilmişdir. Lakin bəzi mətbuat orqanları faciənin ermənilər və onlara yardım edən 366-cı motoatıcı diviziya tərəfindən həyata keçirildiyini yazmışlar. **“Sandi Tayms” qəzeti (London) 1 mart 1992-ci il tarixli sayında** erməni əsgərlərinin minlərlə ailəni məhv etdiyini, **“Faynenşl Tayms” qəzeti (London) 9 mart 1992-ci il tarixli sayında** ermənilərin Ağdama tərəf gedən dəstəni güllələdiyini, 1200-ə qədər azərbaycanlını öldürdüklərini yazmışdı.

**“Tayms” qəzeti (London) və “İzvestiya” (Moskva) qəzetləri 4 mart 1992-ci il tarixli nömrələrində, “Le Mond” qəzeti (Paris) 14 mart 1992-ci il tarixli sayında** erməni vəhşiliyindən bəhs edərək qətlə yetirilənlərin başlarının kəsildiyini, kişilərin skalplarının soyulduğunu qeyd etmişlər.

**“Faynenşl Tayms” (London) qəzeti 14 mart 1992-ci il nömrəsində** general Polyakova istinadən 366-cı alayın tərkibində 103 nəfər erməni hərbçisinin olduğunu yazmışdı.

**“Varel aktuel” jurnalı (Paris) 14 mart 1992-ci il nömrəsində** erməni silahlı dəstələrinin tərkibində ASALA-nın Suriya və Livandan olan hərbçilərinin iştirak etdiyini təsdiqləmişdir.

Yalanın ömrü uzun olmaz demişlər. Hadisə yerində olan **Böyük Britaniyanın “Fant men nyus” teleşirkətinin jurnalisti R.Patrik** yazmışdır: *“Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyəti heç nə ilə haqq qazandıra bilməz”.*

Xocalıdakı soyqırımı ört-basdır etmək üçün ermənilər meyitləri yandırmış, sağ qalanlara işgəncələr vermişlər. Əlimizdə olan sənədlər Xocalı ərazisində - Xanabadla Daşbulaq kəndləri arasında ilk “səyyar ölüm ocaqları” fevralın 28-də təşkil olunduğu, bu prosesdə 366-cı alayın komandanı Yuri Zarviqarovun əsgər və zabitlərinin iştirak etdiyinə şəhadət verir. Daud Xeyriyan Beyrutun “Əş-Şərq” nəşriyyatında çapdan çıxan **“Xaç uğrunda”** kitabında Xocalı faciəsindən bəhs edərək yazır: *“...Bəzən çaşıb ayağımızı meyitlərin üstünə qoyaraq keçib gedirdik. Daşbulaq tərəfdəki bataqlıqdan keçmək üçün ölənləri yanaşı düzüb yol düzəltdik. Ayağımı ölənlərin üstünə qoyub getmək istəmədim. Polkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayım. Müharibənin qurbanlarından biri də budur. Mən ayaqlarımı sir-sifəti qana bulaşmış 9-10 yaşlı bir qızın sinəsinə sıxıb irəli addımladım... Ayaqlarım, fotoaparatım qan içində idi”.*

Daha sonra erməni jurnalist yazır: *“Martın 2-də ermənilərin “Qaflan” qrupu 100 nəfərdən artıq türk meyitini yığıb Xocalıdan təqribən bir kilometr qərb istiqamətində yandırdı... Sonuncu maşında təqribən 10 yaşında olan bir qız uşağı da gördüm. O, alınından və qollarından yara almışdı. Sir-sifəti göyərmiş bu uşaq hələ ölməmişdi. Aclığa və soyuğa, aldığı yaralara baxmayaraq ölməmişdi. Asta-asta nəfəs alırdı. Ölümlə çarpışan bu uşağın gözlərini unuda bilmirəm... Bir azdan onu da “Qaflan”çıların “səyyar ölüm ocaqları”nda yandıracaqdılar. Heysiz-hərəkətsiz uzanmış, dırnaqlarından qan süzülən bu uşağı Tiqranyan çağırılan bir əsgər tolazlayıb qalaqlanmış meyitlərin üstünə atdı...*

*Sonra bu insan qalağına od vurdular. Bu zaman elə zənn etdim ki, yanan meyitlərin içərisində kimsə qışqırır, aman və imdad diləyir... Onlar isə xaç uğrunda döyüşlərini davam etdirirdilər”.*

Erməni hərbi birləşmələri təkcə insanları qətlə yetirməklə kifayətlənmədilər. Onlar həm də nüvə silahını sınaqdan keçirmişdilər. “Bundesver” qəzeti 1992-ci il 7 may tarixli, “İzvestiya” qəzeti 13 may tarixli nömrəsində yazır ki, fevralın 25-də Azərbaycanın Xocalı şəhərinə Xankəndidən 122 mm-lik sionid başlıqlı mərmi atılmışdır. Erməni torrorçuları Qarabağı narkotik bitkilərin əkin yerlərinə çevrmişlər. Burada “Qara bant”çılar, ASALA qrupunun terror təlim düşərgələri, “Emissar”lar üçün mərkəz, reabilitasiya mərkəzi, İnformatorlar qrupu, hərbi sursat mərkəzi, kimyəvi preparatlar üçün **“Pestisid” anbarı, kəşfiyyatın “Elektron” mərkəzi, poçt kommunikasiyası, “Hay Dad” və “Evkara” mərkəzləri, “Mücahidlər, “Kilsə” qərargahları, “Çeqakron” terror təşkilatı, elmi-tədqiqat mərkəzləri, bioloji silahlar üzrə laboratoriyalar yaradılmışdır.** Elə isə dünya bunları bilə-bilə niyə 100 il bundan əvvəl ermənilərin “soyqırıma” məruz qaldıqlarını sübut etmədən qərarlar qəbul edir, insan azadlıqları və hüquqlarına zidd olaraq hətta “erməni soyqırımını” inkar edənlərə cəza müəyyənləşdirir, amma 28 il bundan əvvəl baş verən həqiqəti inkar edirlər. Bu suala cavab 366-cı alayın komandiri Yuri Zarviqarovun zabitlər qarşısındakı çıxışında dəqiq ifadə edilmişdir. 1992-ci il fevralın 24-də saat 21:15-də general rütbəsi alan zabit çıxışında demişdir: *“Regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir”.* Amma, cənab general yanılmışdır. Bu əbədi və əzəli torpaqlar uğrunda müharibədir. Bu ata-babalarımızın bizə əmanət etdikləri vətən torpağının bir qarışı uğrunda, müqəddəs ruh naminə müharibədir və torpaqlar azad olunanadək davam edəcəkdir. Livanda fəaliyyət göstərən “Pamkavar” partiyasının liderlərindən olan Rəfael Messayan Beyrutda çıxan “Zartunk” (Oyanma) qəzetinin 24 mart 1992-ci il tarixli sayında **“Bir erməni yardımı”** məqaləsində yazırdı: “...Xocalı uğrunda vuruşanları, döyüşə atılanları unutmaq, yaddan çıxartmaq biz ermənilərə yaraşan iş deyil. Onlara - o igidlərə yardım edin. Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları **“Artsax yardım fondu”** təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür... Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqtonda erməni biznesmeni Araz Suleyman öz ticarət mərkəzindən gələn illik gəlirini... Parisdə “Erməni ana dili” cəmiyyətinin üzvləri topladıqları ianələri... Xocalı qəhrəmanları üçün ayırdılar...”

Ancaq təəssüf hissi ilə xatırladıram ki, erməni vəhşiliyini unudan, onları “yazıq”, “zavallı” kimi qələmə verənlər də vardır. 1890-cı ildə altı aylığında Şərqi Anadoludan Şamaxıya gətirilən **Əfrasiyab Hovanesyan** 1918-ci ilin dekabrında “Əllərini öpdüm, Haykanuş nənə...” hekayələr kitabını yazır. Kitab Əfrasiyab Müseyiboğlu adı ilə çap olunur. Və yaxud əslən erməni olan, lakin uzun illər bu faktı gizlədən “Dayı” ləqəbli əsil adı Anton Asriyan olan şair Qulamzadə Əsillinin Azərbaycanı təhqir edən “Salam olsun sənə, erməni...” kitabını azərbaycanlı bir iş adamı nəşr etdirmişdir. Necə olur ki, xalqımızın əleyhinə yönəldilmiş cızma-qaraları çap etməyə pul tapırıq”.

Dünyanın siyasi xəritəsində müasir Azərbaycan Respublikası ərazicə kiçik bir ölkədir. XX əsrin sonlarında Azərbaycan Respublikasında milli intibah, siyasi oyanış, müstəqillik və istiqlal uğrunda mübarizə geniş vüsət almış, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etmişdir. Müstəqil Azərbaycan Respublikasının qurucusu Ümummilli Lider Heydər Əliyev müstəqilliyin daimi və dönməz olması üçün titanik fəaliyyət göstərmişdir. Bu gün Azərbaycan dövlətinin başında Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən bir şəxsiyyət dayanmışdır. Bədii obrazlarla ifadə etsək, Azərbaycan Respublikası dünya okeanına üzməyə çıxan yeni bir gəmidir. Okean isə fırtınalı və qasırğalıdır. Ancaq təcrübəli kapitan gəmini okeanda lazımi marşrutla irəli apara bilər. Heydər Əliyev müstəqil Azərbaycan adlı gəmini dünya okeanına çıxarmış, onun kursunu müəyyənləşdirmişdir. Bu kursu ancaq Ulu Öndərin məktəbini keçmiş bir şəxs davam etdirə bilər və xalqımız onu özünə rəhbər seçmişdir.

Müasir Azərbaycan bu gün sürətlə inkişaf edir. Bu inkişafa mane olan yeganə əngəl isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Müasir dövrün siyasi hadisələrini izlədikdə aydın olur ki, dünya birliyi bu problemin həlli istiqamətində heç bir əsaslı iş görmək fikrində deyildir. ATƏT-in və digər beynəlxalq qurumların fəaliyyəti siyasi manevrləri xatırladır. Zənnimizcə, baş verənlərə münasibət imperiyapərəstlərin XX yüzilliyin əvvəllərindən həyata keçirdikləri siyasətin nəticəsi kimi qiymətləndirilməlidir. Varlığı ilə yüz milyonlarla insanın faciəsinə yol açan xalqlar həbsxanasının cinayətkar maşınını yönləndirmiş canilər tarixin qabarlı sinəsinə neçə-neçə qırğın, zorakı köçürmə, qətl möhürləri vurublar. İmperiya quldurlarının, çörəkbasanlarının murdar əli ilə təkcə XX yüzilliyin sonlarına yaxın başımıza gətirdikləri iblisyana müdhiş oyunların-fəlakətlərin qatı tam çılpaqlığı ilə açılmayıb. XX əsrin başlanğıcında olduğu kimi, əsrin sonunda da yaşadığımız ağrılardan doğan tükürpərdici fəryadlarımız qulaqardına vurulub. Belə olmasaydı Xocalı faciəsindən keçən 28 ildə başbilənlər, özlərini dünyanın ağası hesab edərək “demokratiyadan dəm vuranlar”, üzdə bir cür, arxada başqa cür davranmazdılar.

Hər bir diplomatiyanın arxasında güc durduğunu yaxşı dərk edən Azərbaycan xalqı iqtisadi cəhətdən daha qüdrətli, milli birlik baxımından daha sarsılmaz olduqda siyasi sabitlik şəraitində dünyaya sübut edəcəkdir ki, o, əlindən zorla alınmış torpaqlarını geri qaytarmağa və ərazi bütövlüyünü təmin etməyə qadirdir.

Azərbaycan xalqı müharibə istəmir. Çünki Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi zamanı 30 mindən artıq ovladımız şəhid olmuş, 100 mindən artıq Azərbaycan övladı yaralanmış, şikəst olmuşdur. Bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarından didərgin salınmışdır. Ümummilli Lider Heydər Əliyev tərəfindən vaxtı ilə atılan mühüm addımlar, Ulu Öndərin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin münaqişənin sülh yolu ilə həll edilməsi sahəsindəki fəaliyyəti xalqımız tərəfindən bəyənilir və dəstəklənir. Ancaq dövlət başçısının dəfələrlə xatırlatdığı kimi, məsələ ancaq ölkəmizin ərazi bütövlüyü, suverenliyi əsasında həll edilə bilər. Yurd-yuvalarından didərgin salınmış soydaşlarımız doğma yerlərinə qayıtmalı, ata-baba torpaqlarının sahibi olmalıdırlar. Bütün bunları xalqımız bilir və qiymətləndirir. Ən başlıcası ona görə ki, erməni seperatçılarına qarşı mübarizədə həlak olmuş insanların xatirəsi bunu bizdən tələb edir. Onların həyat və döyüş yolu nəinki indiki nəsillərə nümunədir, həm də gələcək nəsillərin qürur mənbəyinə çevriləcəkdir.

Ona görə də, bu gün demokratiyadan dəm vuran Qərb dövlətləri ikili yanaşmaya son qoymalı, beynəlxalq prinsiplərə hörmət etməli, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları çərçivəsində həll etməlidirlər.

Artıq 28 ildir ki, XX əsrin ən böyük soyqırımlarından birini də - Xocalı soyqırımında şəhid olanların xatirəsini yad edirik. Xocalı Azərbaycan xalqının soyqırımları tarixinin son səhifəsi, müstəqillik illərinin ilk soyqırımlarındandır. Odur ki, müstəqilliyimizi qorumalı, onun əbədi və daim olmasına çalışmalıyıq.

Düşünürük ki, 2020-ci il müstəqilliyimizin inkişafı baxımından əhəmiyyətli bir il kimi tarixə düşəcək. Belə hesab edirik ki, ziyalılar, sözün həqiqi mənasında vətənini sevən, xalqın sevgisini qazanan, Azərbaycanın daha da inkişaf etməsini istəyən hər kəs ürəyinin səsinə qulaq asaraq, respublikamızın ərazi bötövlüyünün bərpası, xalqımızın azad, müstəqil və firavan həyatı naminə Azərbaycanı dünyaya tanıdan Prezident İlham Əliyevin ətrafında sıx birləşməlidir.

Dövlət başçısının azərbaycanlıların bütün tarixi torpaqlarına qayıdacağı barədə bəyanatları rəsmi Bakının qətiyyətli mövqe tutduğunu təsdiq edir. İlham Əliyev demişdir: ...azərbaycanlılar Dağlıq Qarabağa qayıtmalıdırlar. Şuşada, Xankəndidə Azərbaycan bayrağı dalğalanmalıdır və əminəm ki, belə də olacaqdır”. Prezidentin arzuları Azərbaycan xalqının arzusudur. Azərbaycan bayrağı əzəli və əbədi Azərbaycan torpağı Qarabağda yenidən dalğalanmalıdır.

***Cəbi BƏHRAMOV,***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***

***Mais ƏMRAHOV,***
***AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə elmlər doktoru, professor***




# XX əsrin faciəsi - Xocalı soyqırımı



## Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib





Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidə önünə tər güllər qoyub, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edib.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də abidə önünə gül dəstələri qoyublar.

Sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmaq və "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək istəyən ermənilər 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə azərbaycanlılara qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə həyata keçiriblər. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı da ötən əsr boyu azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətinin davamı, erməni qəddarlığının daha bir təzahürüdür. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlıları, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayı Xocalı şəhərinə basqın etdi. Dinc sakinlər xüsusi amansızlıqla qətlə yetirildi. Bir gündə 613 nəfər işgəncə ilə öldürüldü. Onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl idi. Xocalı faciəsində 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini, 487 nəfər isə sağlamlığını itirdi. 8 ailə tamamilə məhv edildi, 1275 nəfər əsir götürüldü. Xocalıda qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edildi, ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə belə aman verilmədi, bir gecədə şəhər yer üzündən silindi.

Xocalı soyqırımına ilk qiyməti Ümummilli Lider Heydər Əliyev verib, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanatla Xocalı soyqırımını törədənləri ittiham edib. Ümummilli Lider 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilib. 1994-cü il fevralın 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə hər il fevralın 26-sı ölkəmizdə "Xocalı Soyqırımı Günü" elan olunub. Ümummilli Liderin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Xocalı soyqırımı barədə deyib: "Bu faciə xalqımızın, vətəndaşlarımızın öz vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə birgə səmərəli fəaliyyət göstərirlər. Xocalı həqiqətlərinin tanıdılması istiqamətində aparılan işin nəticəsidir ki, bu gün Xocalı harayı dünyanın hər yerindən eşidilir. Bu soyqırımı beynəlxalq ictimaiyyət hiddətlə qarşılayır, dünyanın hər yerində Xocalı soyqırımına etiraz edənlərin sayı ildən-ilə artır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, Amerika Birləşmiş Ştatlarının 22 ştatı, eyni zamanda, nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini başa düşərək qətliamı kəskin şəkildə pisləyirlər. İslam Əməkdaşlıq Təşkilatı parlamentinin qəbul etdiyi qətnamədə Xocalı faciəsi "Erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı kütləvi soyqırımı" və "İnsanlığa qarşı cinayət" kimi qiymətləndirilib.

Fevralın 26-sı təkcə Azərbaycan xalqının faciə tarixi deyil, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçiririk. 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında xalq-ordu birliyinin sarsılmaz vəhdəti düşməndə qorxu yaradıb. Xalqımız qəti əmindir ki, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti artan Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: "Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir".

Həmin gün muxtar respublikanın rayonlarında da Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı tədbirlər keçirilib.

## Moskvada Xocalı faciəsinin 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

Moskvada, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzində Xocalı faciəsinin 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.





AZƏRTAC xəbər verir ki, Rusiya ictimaiyyətinin, Azərbaycan diasporunun nümayəndələri, xarici ölkələrin Moskvada akkreditə edilmiş səfirləri Xocalı faciəsinin günahsız qurbanlarının xatirəsini anmağa gəliblər.

Xatirə gecəsini açan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu xatırladıb ki, 28 il əvvəl - 1992-ci il fevralın 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının dəstəyi ilə Qarabağda Azərbaycan şəhərinə - Xocalıya hücum ediblər. Xocalı şəhəri bir gecədə yerlə-yeksan edilib. Ölümdən qurtulmaq istəyən yerli sakinlər qarlı dağlara üz tutublar, yolda silahsız insanları erməni silahlı dəstələri güllələbaran ediblər. Səfir deyib: "Qurbanların həqiqi sayı heç kəsə məlum deyil. Şəksiz ki, onların həqiqi sayı rəsmi mənbələrdə gətirilən rəqəmlərdən xeyli çoxdur. Amma elə bu rəqəmlər də insanı dəhşətə gətirir. Bir düşünün, 613 insan bir neçə saat ərzində qətlə yetirilib, 487 adam əlilə çevrilib, 1275 dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülüb, 155 insanın taleyi indiyədək məlum deyil. Bu, xüsusi amansızlıqla törədilmiş əsl soyqırımı idi. Qurbanların çoxu diri-diri yandırılıb, kiminin başını kəsiblər, kiminin gözlərini çıxarıblar, kiminin də qulaqlarını kəsiblər, hamilə qadınların bədənlərində təhqir izləri aşkar edilib".

Diplomat qeyd edib ki, xalqımızın tarixinin bu faciəli səhifəsini unutmaq, bağlamaq, çevirmək mümkün deyil. "Bu yaxınlarda Münxendə Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş xalqımızın Azərbaycanın qanuni maraqlarını sonunadək müdafiə etmək qətiyyətini bir daha əyani nümayiş etdirdi. Cənab Prezident Dağlıq Qarabağın Azərbaycana məxsus olması barədə bir sıra təkzibedilməz faktlar gətirdi və öz tezisini tarixi məlumatlarla, habelə beynəlxalq hüquqa, o cümlədən BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin ölkəmizin ərazisindən qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə çoxsaylı istinadlarla möhkəmləndirdi", - deyə P.Bülbüloğlu vurğulayıb.

Səfirin sözlərinə görə, cinayətkarların adbaad məlum olmasına, onların praktiki olaraq bu cinayəti etiraf etmələrinə baxmayaraq, dünya ictimaiyyətinin gözü qarşısında törədilmiş bu soyqırımı aktına görə indiyədək heç kəs məsuliyyət daşımayıb.

Səfir deyib: "Biz tarixin təkərini geri döndərə bilmərik, həlak olanları geri qaytara bilmərik, lakin biz belə bir faciənin təkrarlanmaması üçün Xocalıda baş verənlər barədə həqiqəti dünyaya çatdıra bilərik və bunu etməyə borcluyuq. Məhz bu məqsədlə Heydər Əliyev Fondunun vitse-prezidenti və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanda "Xocalıya ədalət!" hərəkatı yaranıb və bu hərəkat dünya miqyasında yüz minlərlə gənci bir araya gətirib. Onlar öz missiyasını Xocalı soyqırımı haqqında həqiqətləri müxtəlif ölkələrin vətəndaşlarına çatdırmaqda görürlər".

Tədbirdə yazıçı Günel Anarqızının və şairə Leyla Bəyimin "Haray" kitabının təqdimatı olub. Kitaba Günel Anarqızının "Qarabağ hekayələri" və Leyla Bəyimin "Qarabağ şikəstəsi" poeması daxil edilib.

Günel Anarqızı çıxışında qeyd edib ki, bu günlərdə Leyla Bəyimlə birlikdə İsraildən qayıdıb. Orada Xocalı soyqırımı qurbanlarının xatirə gecəsi və "Haray" kitabının təqdimatı olub. G.Anarqızı Qarabağa sonuncu səfərini xatırlayaraq deyib: "Atam çəkiliş qrupu ilə birlikdə dahi Üzeyir Hacıbəyli haqqında film çəkəndə mənim 8 yaşım vardı. Çəkilişlər Üzeyir bəyin Şuşadakı evində aparılırdı. Mən Üzeyir bəyin bacısı rolunda çəkilirdim. Hər dəfə bu filmə baxanda bizim qayğısız təbəssümümüzü xatırlayıram və gözümün qarşısında Şuşa, qayıda bilmədiyimiz o torpaq canlanır".

Tədbirdə Siyasi Araşdırmalar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndiricisi Sergey Markov, politoloq, hərbi ekspert İqor Korotçenko, hüquq elmləri doktoru, professor Tofiq Qəndilov çıxış ediblər, şairə Leyla Bəyim "Qarabağ şikəstəsi" romanından parça oxuyub.

Gecədə Xalq artisti Fəxrəddin Manafovun ifasında Günel Anarqızının "Ataya məktub" hekayəsinin videoyazısı nümayiş etdirilib.

## *"Novıye izvestiya" qəzeti:* "Əsrin vəhşiliyi: fevralın 26-da Xocalı qətliamının növbəti ildönümüdür"

Rusiyanın "Novıye izvestiya" qəzetində "Əsrin vəhşiliyi: fevralın 26-da Xocalı qətliamının növbəti ildönümüdür" adlı məqalə dərc olunub.




AZƏRTAC xəbər verir ki, İvan Petrovskinin məqaləsində hərbi dövrə heç bir dəlil və istinadların Dağlıq Qarabağda münaqişə zamanı dinc vətəndaşların kütləvi qətlinə haqq qazandırmağa qadir olmadığı qeyd edilir.

Müəllif yazır ki, bəşər tarixində bir xalqın nümayəndələrinin digər xalqın nümayəndələrinə münasibətdə amansız qəddarlığının xeyli kədərli səhifələri mövcuddur. Fevralın 26-da növbəti dəfə ildönümü qeyd edilən Xocalı qətliamı belə səhifələrdən biridir. Bu, şübhəsiz ki, Dağlıq Qarabağda hərbi münaqişənin ən qaranlıq epizodlarından biridir. 1992-ci ildə Azərbaycanın Xocalı şəhərinin yüzlərlə sakini, o cümlədən qadınlar və uşaqlar qətlə yetirilib, yaralanıb, itkin düşüblər.

Məqalədə o müdhiş gecədə baş verən hadisələr barədə ətraflı bəhs edilir. "Bu cür vəhşiliyə heç bir bəraət mövcud deyil və mövcud ola da bilməz", - deyən müəllif əlavə edir ki, bu "döyüşün" "qalibləri" bununla bərabər, dinc əhali arasında itkilərin sayını hər vasitə ilə azaldaraq qara tarixi qeyd etməməyə üstünlük verirlər.

## *Rusiya qəzeti:* "Xocalı hadisələri barədə xatirə təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün mühümdür"

"Bəşər tarixində xüsusi həyasızlıq və qəddarlıqla törədilən cinayətlər az deyil. Bütün dünya Holokost faciəsini, Belarusun Xatın kəndinin məhv edilməsini və digər dəhşətli cinayətləri xatırlayır. Azərbaycanın Dağlıq Qarabağdakı Xocalı şəhərinin faciəsi də unudulmayıb", - deyə Rusiyanın "Dni.ru" qəzetinin müxbiri Fyodor Lopırev yazır.




AZƏRTAC xəbər verir ki, məqalədə həmin müdhiş günlərin hadisələri barədə danışılır. Qəzet yazır ki, 1992-ci ilin fevral hadisələrindən sonra Xocalıda müsəlman qalmadı. Xocalı faciəsi XX əsr ərzində bir sıra müsibət və iztirablardan çıxmış Azərbaycan xalqının bir çox cəhətdən çətin həyatını əks etdirir. Sovet dövründə müsəlman sakinlər ardıcıl surətdə Ermənistandan sıxışdırılaraq çıxarılıblar: təkcə İosif Stalinin dövründə 150 min azərbaycanlı doğma yurd-yuvalarından deportasiya edilib", - deyə məqalədə vurğulanır.

Müəllif sonda yazır: "Xocalı hadisələri barədə xatirə təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün mühümdür. Xalqlar bilməlidir ki, azğın millətçilik və dözülməzlik hansı nəticələrə gətirib çıxarır. Məşhur ispan məsəlində deyilir ki, dərrakənin yuxusundan yırtıcı törənir. Baş verənlər haqqında xatirə ksenofobiya yırtıcıları üçün ən yaxşı silahdır. Yalnız bu yolla Holokost, Xatın və Xocalıya bənzər müsibətlərdən yaxa qurtarmaq mümkündür".

## Rusiyanın informasiya agentliyi Xocalı soyqırımı barədə məqalə yayıb

Rusiyanın "Ura.ru" informasiya agentliyinin saytında "Niyə 30 il bundan əvvəl baş vermiş soyqırımı Azərbaycan üçün hələ də sarsıntıdır" sərlövhəli məqalə dərc edilib.




AZƏRTAC xəbər verir ki, Tatyana Ryabovanın məqaləsində MDB-də ən dəhşətli faciələrdən birinin tükürpərdən tarixçəsi barədə danışılır.

Məqalədə deyilir ki, azərbaycanlılar fevralın 25-dən 26-na keçən gecə dinc sakinlərin kütləvi şəkildə vəhşicəsinə qətlə yetirildiyi Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edir. Ermənistan və Azərbaycan arasındakı münaqişə 1992-ci ildə bütöv xalq üçün faciəyə çevrildi. Müəllif məqalədə tarixçi Rizvan Hüseynov və Zaur Mehdiyevin fikirlərindən sitatlar gətirir.

## Xocalı soyqırımı ilə əlaqədar Koreya Respublikası parlamentinin üzvlərinə müraciət ünvanlanıb

Koreya Respublikasında yaşayan həmvətənlərimiz bu ölkənin parlamentinin Azərbaycan ilə dostluq qrupunun üzvlərinə Xocalı soyqırımı ilə bağlı müraciətlər ünvanlayıblar.

AZƏRTAC xəbər verir ki, məqsəd ötən əsrin ən qanlı cinayətlərindən olan Xocalı soyqırımının Koreya Milli Assambleyası tərəfindən tanınmasına və onu törədənlərin cəzalandırılması istiqamətində səylərin artırılmasına nail olmaqdır. Müraciətlərdə Xocalı soyqırımının tanıdılmasında azərbaycanlıların məqsədinin intiqam alınması deyil, heç bir günahı olmayan mülki şəxslərə qarşı yalnız etnik mənsubiyyətinə görə törədilmiş həmin cinayət üzrə ədalətin yerini tapması olduğu vurğulanıb.

Qeyd edək ki, Xocalı soyqırımının Koreya Respublikasında daha yaxşı tanıdılması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində Koreya Prezidenti Administrasiyasının və parlamentinin rəsmi internet səhifələrində "Xocalı soyqırımının 28-ci ildönümü ərəfəsində səsimizi eşidin!" başlıqlı petisiyalar yerləşdirilib. Petisiyalarda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən 613 azərbaycanlının, o cümlədən azyaşlı uşaq, qadın və yaşlı insanların işgəncələrə məruz qalaraq vəhşicəsinə öldürülməsi vurğulanıb, Ermənistan hakimiyyətinin törətdiyi bu kimi cinayətlərə hüquqi qiymət verilməsinin vacibliyi diqqətə çatdırılıb. Koreya Respublikası Prezidentinin internet səhifəsində yerləşdirilmiş petisiya tələb olunan sayda dəstək topladığından səhifəsinin administratoru tərəfindən nəzarətə götürülüb və hazırda nəzərdən keçirilir.

## Sükut dəqiqəsi





Fevralın 26-da Bakı vaxtı ilə saat 17:00-da Azərbaycanın bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

AZƏRTAC xəbər verir ki, həmin anda paytaxtın küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb. Ölkəmizin şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endirilib.

Azərbaycan paytaxtının minlərlə sakini fevralın 26-da Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edərək şəhidlərin xatirəsini ehtiramla anıb, abidənin önünə əklillər qoyub, qərənfillər düzüblər. Təhsil müəssisələrində ilk dərslər bu faciəyə həsr olunub. Respublikamızın bütün şəhər və bölgələrində, xarici ölkələrdə anım mərasimləri keçirilib.

Qeyd edək ki, Xocalı soyqırımı zamanı 613 nəfər öldürülüb, 1275 nəfər girov götürülüb. Qətlə yetirilənlərin 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Girov götürülənlərdən 155-nin taleyi hələ də məlum deyil.

## Sergey MARKOV: "Bu faciəli günlərdə biz sizinləyik"

"Xocalı faciəsinin ildönümünü qeyd etdiyimiz bu faciəli günlərdə Rusiya xalqı adından Azərbaycan xalqı ilə dərin həmrəyliyimi ifadə edirəm və ümidvar olduğumu bildirirəm ki, belə faciələr heç vaxt heç yerdə təkrarlanmayacaq".

AZƏRTAC xəbər verir ki, bu barədə Siyasi Araşdırmalar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndiricisi Sergey Markov Xocalı soyqırımı qurbanlarının xatirə gecəsində bildirib. Xocalı hadisələrinin soyqırımı olduğunu - dinc sakinlərin bilərəkdən milli əlamətə görə qətlə yetirildiyini vurğulayan politoloq deyib: "Bu qırğının təşkilatçılarının çoxsaylı müsahibələri var. Onlar özlərinin məkrli siyasi planından danışırlar. Bəşəriyyət əleyhinə bu cinayət də məhz həmin plan naminə törədilib. Plan isə on minlərlə, yüz minlərlə dinc sakinin dəhşət içində işğal edilmiş ərazilərdən qaçması üçün onları vahiməyə salmaqdan və bununla da etnik təmizləmə həyata keçirməkdən ibarət idi. Onda hələ heç kəs qorxu nə demək olduğunu bilmirdi. Axı yaxın keçmişdə insanlar vahid ölkədə yaşayırdı, tədbirlərdə iştirak edir, bir yerdə təhsil alır və işləyirdilər. Təşkilatçıların düşüncəsinə görə, əvvəlki həyatı yenisindən ayıracaq sədd rolunu məhz bu dəhşətli kütləvi qırğın oynamalı idi".

Rusiyalı ekspert ümidvar olduğunu bildirib ki, belə faciə daha heç vaxt təkrarlanmayacaq, Xocalı torpağında ədalət bərqərar olacaq, Azərbaycan xalqı əzəli torpaqlarına geri dönəcək. "Rusiya və Azərbaycan xalqları qardaş xalqlardır. Buna tam əmin ola birləsiniz. Biz bu faciəli günlərdə sizinləyik", - deyə Sergey Markov sonda deyib.




# XX əsrin faciəsi - Xocalı soyqırımı



## Xarici İşlər Nazirliyi və Baş Prokurorluq Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar bəyanat yayıblar

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Baş Prokurorluğu Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar birgə bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə fevralın 26-da Xarici İşlər Nazirliyində keçirilən mətbuat konfransında məlumat verilib.

Bəyanatda deyilir: "2020-ci il fevralın 26-da Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda törədilmiş qırğının 28-ci ildönümü tamam olur.

Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü nəticəsində, Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil olmaqla, Azərbaycan ərazilərinin təqribən beşdəbiri işğal olundu və bu ərazilərdə, eləcə də Ermənistan ərazisində yaşayan bir milyondan çox yerli azərbaycanlı etnik təmizləməyə məruz qaldı.

Sözügedən təcavüz zamanı azərbaycanlı mülki əhaliyə qarşı çoxsaylı müharibə, sülh və insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi və bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı ilə əlaqədar oldu. Münaqişədən əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə 7000 insan yaşayırdı. 1991-ci ilin oktyabr ayından şəhər tamamilə Ermənistan silahlı qüvvələri tərəfindən mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər sakini zorakılıqla qovulmuş, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalmış (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 8 ailə tam məhv edilmiş, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərinin hər ikisini itirmiş, 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca işgəncə verilməklə vəhşicəsinə öldürülmüşdür. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəblərinin və nəticələrinin ümumi qiymətləndirilməsi və Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını sadəcə azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, sülh və insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyriinsani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunda aparılan istintaqla bir sıra hərbi qulluqçuların və digər şəxslərin Xocalı soyqırımının törədilməsində iştirakı tam sübuta yetirilib və onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırımı, işgəncə, əhalini deportasiya etmə, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma və digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə müvafiq qərarlar çıxarılıb.

Xocalı soyqırımı epizodu üzrə aparılan istintaq zamanı 7500-ə yaxın istintaq hərəkəti icra edilib, o cümlədən 1800-dən çoxu şahid və 2700-dən çoxu zərərçəkmiş şəxs qismində olmaqla 4500 nəfərdən çox şəxs dindirilib, 800-dən artıq müxtəlif növ ekspertizalar keçirilib, digər istintaq hərəkətləri icra edilib.

Xocalı soyqırımından 1 il sonra, 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını pisləyən və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörməti, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazilərin güc yolu ilə əldə edilməsinin yolverilməzliyini təsdiq edən 4 (822, 853, 874, 884 saylı) qətnamə qəbul etdi. Beləliklə, Ermənistanın ərazi iddialarına və əməllərinə cavab olaraq Təhlükəsizlik Şurası Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu təsdiq etdi və bütün işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Bu mövqe çoxsaylı beynəlxalq təşkilatların qərar və qətnamələrində də öz əksini tapır.

Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə hücumda iştirak edənlərin davranışını müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan hərəkətlər kimi qiymətləndirərək mühüm nəticəyə gəlib.

Hazırda 16 dövlətin milli qanunvericilik orqanı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı Xocalıda dinc əhalinin qırğınının ən kəskin şəkildə pislənilməsi və Xocalı faciəsinin soyqırımı və insanlıq əleyhinə cinayət aktı kimi tanınmasına dair qətnamə və qərarlar qəbul ediblər.

2020-ci ilin fevral ayında Azərbaycan hökumətinin müraciəti əsasında tanınmış beynəlxalq hüquq eksperti Malkolm Şou tərəfindən hazırlanmış "Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş müharibə cinayətləri və Ermənistanın məsuliyyəti" adlı hesabat BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədləri kimi dərc olunub. Əsas faktları, tarixi arayışı, beynəlxalq humanitar hüququn ümumi çərçivəsini və Ermənistanın məsuliyyətinin təhlilini ehtiva edən hesabatda Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində törədilmiş hərbi cinayətlər araşdırılır, o cümlədən Xocalı qırğını insanlığa qarşı cinayət və soyqırımı kimi xarakterizə olunur.

Lakin Ermənistan hələ ki, dünya ictimaiyyətinin mövqeyinə, xüsusilə Azərbaycanın zəbt olunmuş torpaqlarından işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam geri çəkilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymur və beləliklə, beynəlxalq hüququ kobudcasına pozmaqda davam edir. Ermənistan qəsb olunmuş ərazilərdə hərbi mövcudluğunu saxlayaraq, həmin ərazilərin demoqrafik, mədəni və fiziki xarakterini dəyişdirərək, yüz minlərlə azərbaycanlının orada yerləşən doğma yurd-yuvalarına qayıtmasının qarşısını alaraq, işğala əsaslanan mövcud status-kvonun möhkəmlənməsinə yönəlmiş səylər göstərməyə davam edir.

Ermənistan Respublikasının beynəlxalq hüquqazidd fəaliyyətləri ilə bağlı məsuliyyətləri ilə yanaşı, beynəlxalq cinayət hüququnun adət və müqavilə normalarına əsasən, Xocalı şəhərində törədilənlər də daxil olmaqla silahlı münaqişə kontekstində törədilmiş müəyyən fəaliyyətlər beynəlxalq cinayət əməlləri hesab olunur. Bu əməllərin törədilməsində iştirak etmiş şəxslər, eləcə də onlarla əlbir olan və onlara kömək edənlər də fərdi qaydada məsuliyyət daşıyırlar.

Rəsmi Yerevan Azərbaycan ərazilərini işğal etməsi və bu ərazilərdəki hərbi mövcudluğuna görə məsuliyyəti təkzib etməklə yanaşı, hətta Xocalı qırğınının guya ki, azərbaycanlılar tərəfindən öz vətəndaşlarına qarşı törədildiyini utanmadan iddia edir və bununla əlaqədar Azərbaycan Respublikasının keçmiş prezidenti Ayaz Mütəllibovun Rusiya KİV-ə verdiyi müsahibəsinə istinad edir. A.Mütəllibov dəfələrlə ona edilən bu istinadların yalan və iftira olduğunu, Xocalı qətliamının ermənilər tərəfindən törədildiyini bəyan edib.

Məlumdur ki, Ermənistanın əvvəlki rəhbərliyinin bəzi nümayəndələri, digər çoxlu yüksək rütbəli siyasi və hərbi rəsmiləri Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin rəhbərləri ilə birlikdə Azərbaycan torpaqlarının zəbt olunmasında və Xocalı da daxil olmaqla azərbaycanlı mülki şəxslərə və hərbçilərə qarşı zorakılıqda şəxsən iştirak ediblər.

Öz təqsirini utanmadan etiraf etmiş Ermənistanın o dövrdəki müdafiə naziri və sabiq prezidenti Serj Sarkisyan Britaniya jurnalisti Tomas de Vaala müsahibəsində deyib: "Xocalıdan qabaq azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdırlar. Biz bu stereotipi sındırdıq" (Tomas de Vaal, Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında (Nyu York və London, Nyu York Universiteti Nəşriyyatı, 2003), səhifə 172)).

Danılmaz faktdır ki, bu gün ən qatı beynəlxalq cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər soyqırımı və etnik təmizləmədə adı hallandırılan heç bir şəxsə onun indiki və ya əvvəlki hər hansı statusu immunitet verə bilməz.

Hazırda Ermənistanda öz xalqına qarşı müxtəlif cinayətlərin törədilməsi ittihamları ilə barələrində istintaq və məhkəmə prosesləri aparılan şəxslərin Azərbaycan xalqına qarşı ən ağır cinayətlərin törədilməsinə görə də məsuliyyətə cəlb edilməsi həm beynəlxalq ədalətin bərqərar olunması, həm də Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla danışıqlar vasitəsilə nizama salınmasına mühüm töhfə verə bilər.

Azərbaycan Respublikası əmindir ki, milli səviyyədə, eləcə də mövcud beynəlxalq hüquq çərçivəsində görülən davamlı tədbirlər cəzasızlığa son qoyulmasına və Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsi qarşısına çıxarılmasına xidmət edəcək.

## ABŞ Dövlət Departamenti Xocalı faciəsi ilə bağlı bəyanat verib

Fevralın 25-də ABŞ Dövlət Departamentinin mətbuat xidməti Xocalı faciəsi ilə bağlı bəyanat verib.

Dövlət Departamentindən Xocalı faciəsinin 28-ci ildönümü ilə bağlı verilən açıqlamaya görə, Amerika Birləşmiş Ştatları qətl edilən günahsız insanları dərin hüznlə anır və Ermənistanla Azərbaycanı münaqişəni tezliklə həll etməyə çağırır.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri keçmiş SSRİ dövründə Xankəndi (Stepanakert) şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərini zəbt edib, etnik azərbaycanlılara qarşı soyqırımı törədiblər. Bu qırğının nəticəsində 613 nəfər həlak olub.

Azərbaycanın Dağlıq Qarabağ regionu və yeddi ətraf rayon Ermənistan silahlı qüvvələri tərəfindən 1992-1994-cü illərdə işğal edilib. Ermənistanın işğalçı siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı öz torpaqlarından didərgin düşüb. 1993-cü ilin aprel-noyabr aylarında BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını pisləyən, erməni silahlı qüvvələrinin bu ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün şərait yaradılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. 2008-ci ilin mart ayında BMT Baş Məclisində beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə edilmiş mövqeyini bir daha təsdiqləyən 62/243 saylı qətnamə qəbul olunub. Müxtəlif ölkələrin və beynəlxalq təşkilatların qanunverici orqanları BMT Təhlükəsizlik Şurasının bu qətnamələrini əsas götürərək, erməni işğalçı qüvvələrinin Azərbaycandan çıxarılmasını tələb edən sənədlər qəbul ediblər.




## İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımı ilə bağlı bəyanat yayıb

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd əl-Useymin 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımının 28-ci ildönümü ilə əlaqədar bəyanat yayıb. Baş katib faciə zamanı həlak olmuş insanların xatirəsini ehtiramla yad edib.


Organisation of Islamic Cooperation
The Collective Voice of The Muslim World

OIC Festival Celebration Programme ...

OIC General Secretariat Commemorates Khojaly Massacre

Date: 25/02/2020

On the occasion of the 28th anniversary of the mass atrocities that took place in the town of Khojaly of the Republic of Azerbaijan, the Secretary General of the Organization of Islamic Cooperation (OIC), Dr. Yousef bin Ahmad Al-Othaimeen, has paid his sincere tribute to all who lost their lives in the 1992 incident.

The OIC considers that the Khojaly atrocity was a result of the illegal occupation by Armenia of Azerbaijani territory. The Secretary General referred to the Cairo Final Communiqué adopted by the 12th Session of the Islamic Summit held in Cairo in 2013 and the resolutions adopted by previous sessions of the OIC Council of Foreign Ministers (CFM), including the 46th Session of the CFM held in Abu Dhabi in 2019, which considered the actions perpetrated against civilian Azerbaijani population in the occupied Azerbaijani territories as war crimes, crimes against humanity and genocide.

On this sad occasion, the Secretary General reaffirmed the CFM resolutions calling for the earliest political settlement of the Armenia-Azerbaijan conflict on the basis of sovereignty, territorial integrity and inviolability of the internationally recognized borders of the Republic of Azerbaijan, in accordance with the generally accepted norms and principals of international law and the relevant UN Security Council resolutions.

AZƏRTAC xəbər verir ki, bəyanatda Xocalı qırğınının Ermənistanın Azərbaycan torpaqlarını qeyri-qanuni işğal etməsi nəticəsində baş verdiyi bildirilir. Qeyd edilir ki, Baş katib işğal olunmuş Azərbaycan ərazilərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş hərəkətləri müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi dəyərləndirən, 2013-cü ildə Qahirədə keçirilmiş İslam Sammitinin 12-ci sessiyasının Yekun Kommünikesinə, o cümlədən İƏT Xarici İşlər Nazirləri Şurasının 2019-cu ildə Əbu-Dabidə keçirilmiş 46-cı sessiyasında qəbul edilmiş qətnamələrə istinad edib.

Baş katib bəyanatda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qəbul edilmiş beynəlxalq hüququn norma və prinsiplərinə, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında ən qısa müddətdə siyasi həllinə çağıran İƏT Xarici İşlər Nazirləri Şurasının qətnamələrini bir daha xatırladıb.

## DSX-nin bütün hərbi hissələrində və sərhəd bölmələrində faciə anılıb



Dövlət Sərhəd Xidmətinin (DSX) bütün struktur qurumlarında, hərbi hissələrində və sərhəd bölmələrində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir. DSX-nin Siyasi Repressiya Qurbanları, Azərbaycan Milli İstiqlal və Respublika Hərbi Prokurorluğunun Memorial Soyqırımı muzeylərində keçirilən tədbirlərdə xidmətin zabit, gizir, kursant heyəti iştirak edib, dəhşətli faciənin erməni şovinist millətçiləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı olduğu şəxsi heyətin diqqətinə çatdırılıb.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Dövlət Sərhəd Xidmətinin Aparatında keçirilən tədbirdə şəxsi heyət əvvəlcə Xocalı faciəsinin dəhşətlərini əks etdirən fotosərgi ilə tanış olub.

Tədbirin rəsmi hissəsi Xocalıda qətlə yetirilmiş soydaşlarımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Çıxış edənlər dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı, faciənin səbəb və nəticələri barədə ətraflı məlumat veriblər.

Xocalı soyqırımına siyasi və hüquqi qiymət verilməsi, erməni faşizminin ifşası ilə bağlı ilk təşəbbüsün Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülməsi qeyd olunub. Soyqırımı hadisəsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasətin uğurlu nəticələr verməsi, xalqımıza qarşı törədilmiş bu qanlı cinayətin beynəlxalq müstəviyə çıxarılması və Xocalı soyqırımının qətliam kimi Pakistan və Sudan tərəfindən tam səviyyədə, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Cibuti, Peru, Honduras, Panama, İordaniya, Rumıniya və Şotlandiya tərəfindən isə parlament səviyyəsində tanındığı bildirilib.

Tədbirin sonunda Xocalı soyqırımı ilə bağlı sənədli film nümayiş etdirilib.

*"Azərbaycan"*

## UNEC-də Xocalı soyqırımının 28-ci ildönümü qeyd olunub

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Yaradıcılıq Mərkəzinin Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı səhnələşdirdiyi "Arzu və Murad" tamaşası nümayiş olunub.





UNEC-in yaradıcı və istedadlı tələbələrinin rol aldığı tamaşa Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında nümayiş olunub. Səhnə əsərinin premyerasında UNEC-in rektoru, professor Ədalət Muradov və universitetin müəllim-tələbə heyəti ilə yanaşı, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyev, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova, tanınmış ziyalılar, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Rejissoru UNEC Yaradıcılıq Mərkəzinin direktoru Elman Telmanoğlu, quruluşçu rejissoru isə Vahid Orucoğlu olan tamaşada rolları UNEC Tələbə Teatrının üzvləri Yasin Əhmədov, Heyran Mehdiyeva, İlham Quliyev, Aslan Əzimzadə, Rəşad Aslanov, Nigar Ağayeva, Gülnur İmanova, Nərmin Zeynallı canlandırıblar. Tamaşada Xocalı faciəsinin 2 gəncin həyatına vurduğu ağır mənəvi zərbələrdən, yaşatdığı acılardan bəhs olunub. Gərgin dram və faciənin yaşandığı tamaşa izləyənlərə duyğulu anlar yaşadıb.

Qeyd edək ki, Xocalı soyqırımı ilə bağlı UNEC-də, eləcə də universitetin Zaqatala filialında və Maliyyə İqtisad Kollecində silsilə tədbirlər keçirilib, rəsm sərgisi təşkil edilib. UNEC-in əsas tədris binasında Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan, yarpaqlarında faciə qurbanlarının adları həkk olunan "Xatirə ağacı" ziyarət olunub.

## İnstitutda ilk dərslər Xocalı soyqırımına həsr olundu

Ötən gün Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) Təhsil Nazirliyinin "Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı"na əsasən ilk dərslər Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunub.



Müəllimlər 28 il bundan əvvəl Xocalı sakinlərinə qarşı erməni silahlı birləşmələrinin və sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə törədilən faciənin dəhşətlərindən söz açıblar. Xocalı soyqırımı ilə bağlı fikirlərini tələbələrlə bölüşən müəllimlər şəhid olmuş günahsız insanların həmişə ehtiramla yad ediləcəklərini diqqətə çatdırıblar.

Dərslərdə Xocalı soyqırımı haqqında həqiqətləri çatdırmaq məqsədilə müxtəlif fotoşəkillər, məlumatlar, faciəni özündə əks etdirən sənədli filmlər nümayiş olunub.

Aİİ tələbələrin milli-mənəvi köklərimizə bağlı, dövlətçiliyimizi qoruyub saxlayan, vətənini sevən, onun yolunda canından keçməyə hazır, vətənpərvər, mərd, cəsur, cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşması üçün qəhrəmanlıq tariximiz haqqında bədii və sənədli filmlərin nümayişini, müharibə iştirakçıları ilə görüşlərin və ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş vətən övladlarının yad edilməsi məqsədilə müxtəlif seminarların və "dəyirmi-masa"ların təşkilini həyata keçirir. Bu istiqamətdə institut Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı silsilə tədbirlər keçirir. Belə ki, ali təhsil müəssisəsi Türkiyənin İstanbul şəhərində Xocalıda qətlə yetirilmiş 63 uşaqdan bəhs edən, 4 dildə nəşr olunan "Onlar heç vaxt böyüməyəcəklər" kitabının təqdimatını və faciə qurbanlarına həsr olunmuş fotoşəkillərdən ibarət sərginin nümayişini həyata keçirib. Bundan əlavə, institut "Bir" Tələbə-Könüllü Proqramı ilə tələbələr üçün "Azərbaycan Bayrağı" ordenli İbad Hüseynov haqqında çəkilmiş "Xüsusi təyinatlı İbad" filminin nümayişini, Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Xocalı: milli tariximizin şəhidlik səhifəsi" mövzusunda tədbir keçirib. Eyni zamanda, orta məktəblərdə Xocalı soyqırımı haqqında tədbirlərdə də Aİİ-nin rəhbər və müəllim heyəti iştirak edib.

Həmçinin institutun Tələbə Gənclər Təşkilatının üzvləri Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova ilə birlikdə Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı "Ana harayı" memorial kompleksini ziyarət ediblər.

Ziyarət zamanı abidə önünə tər çiçəklər düzülüb, faciə qurbanlarının xatirəsi ehtiramla yad edilib.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# İnsanlar kütləvi şəkildə “Ana harayı” abidəsinə doğru axışırdılar

28 ildir ki, xalqımızın qan yaddaşına yazılan bir faciənin ağrıacısını yaşamaqdayıq. Yalnız vətənində, doğma yurdunda yaşayan soydaşlarımızın deyil, dünya azərbaycanlılarının dilinin əzbərinə, nənələrin ağı-bayatısına çevrilib tar-mar olunan, bir gecənin içərisində məhv edilən, yer üzündən silinən, “tonqal”lara atılan Xocalımız.















Dünən Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək, ermənilər tərəfindən törədilmiş bu vəhşi qətliamı bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq məqsədi daşıyan izdihamlı mərasim bir daha göstərdi ki, xalqımız bu faciəni heç zaman yaddan çıxarmayacaq.

Anım mərasimində şəhid Xocalının şahid xocalılıları da az deyildi. “Ana harayı” abidəsinin ətrafında göz yaşı axıda-axıda doğmalarının daşa həkk edilən adlarını axtaranlardan biri də Roza Quliyeva idi. Abidənin üzərində adları yazılmış bütün Quliyevlər onun doğmalarıdır. Atası da o gecə əsir düşüb: “Xocalı faciəsindən danışmaq çox ağırdır. Ermənilər qorxaq, xain və hiyləgərdirlər. Onlara kömək edən sovet ordusunun 366-cı alayı oldu. Atam əsirlikdən qayıtdıqdan sonra deyirdi ki, bizi orada döyən, zülm verənlərin birini də tanımırdıq. Deməli, xaricdən və Ermənistandan gələn muzdlu daşnaklar idilər”.

Sabir Aslanov Ağdamın Şelli kəndindəndir. Bildirdi ki, atası Xəqani Aslanov da Xocalının o dəhşətli günlərində xocalılılarla birlikdə olub. Həmsöhbətimiz deyir ki, 3 qardaş (atası və iki əmisi) Qarabağın müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olublar. Xocalının işğal edildiyi gecə xocalılıların köməyinə ikinci dəfə gedən atası orada şəhid olub. Şəhid oğlunu yandıran həm də atasının meyitinin çıxarıla bilməməsidir.

Xalidə Hüseynovanın siyahıda 3 doğmasının - atasının, anasının və qardaşının adları var. O dəhşətli hadisədən bir həftə sonra doğmalarının meyitlərini meşədən tapıblar: “Onları Bərdənin Yeni Həyat kəndində torpağa tapşırdıq. Mərhum Milli Qəhrəman Çingiz Mustafayevin ağlaya-ağlaya çəkib göstərdiyi cəsədlərin arasında idilər. Budur, baxın, Hüseyn, Həsən, Ziynət, Yunis, Rəşid, Sədaqət...”

Elmira Əzizova o gecə ağır yaralanıb. Əsgərlərimiz onu yaxınlıqdakı hospitallardan birinə çatdırıblar. Həyat yoldaşı döyüşlərdə iştirak edib, mühasirədə qalıb. O da doğmalarını itirib. 7 şəhid verib.

Günel İbrahimli Elmira Əzizovanın qızıdır. O müdhiş gecənin şahidi olmasa da, eşitdikləri onu dəhşətə gətirir. Düşünür ki, Xocalı faciəsini unutmaq olmaz. Ata-anası da bu mənada o qanlı gecəni uşaqlarının yaddaşına yazıblar ki, onlar da gələcək nəsillərə çatdırsınlar. Günel o gecənin şəhidlərinin hər birinin müqəddəs məzarını ziyarət edə bilmədiklərinin çox ağır olduğunu dilə gətirdi.

O gecə iki qardaşından əli üzülən Pərvanə Məmmədovanın isə itkiləri yalnız bunlar olmayıb: “Qayınatamla birlikdə nəslimizdən o gecə 15 nəfər itirmişik. Bu abidəni nə yaxşı ki, ucaldıblar. Dövlət başçısına, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarıq ki, şəhidlərimizin adını həmişə uca tutublar. Bu abidə də bizə bir təsəllidir, yoxsa hara ziyarətə gedə bilərdik? Xalqımız xocalılıların dərdinə illərdir ki, şərik çıxır. İnanırıq ki, torpaqlarımız işğaldan azad ediləcək. Xocalıda doğulmayan uşaqlar o yerlərdə yenidən qurub-yaradacaqlar. Xocalının başı əzəldən bəlalı olub: dolub-boşalıb”.

Solmaz İsmayılova 63 saylı tam orta məktəbin müəllimidir. Xocalıda dünyaya göz açmış bu ana da 613 nəfərlik şəhid siyahısındakı adların arasından doğmalarını axtarıb tapır: Həmid və Tariyel Səmədov qardaşları. Solmaz xanım Həmid Səmədovun ömür-gün yoldaşıdır. Deyir ki, qaynı Tariyelin meyitini hadisə yerindən çıxara bilməyiblər. Həyat yoldaşını isə Ağcabədinin Təzəkənd kəndində dəfn ediblər...

Gözüyaşlı analardan biri də Gülayə Orucovadır. 16 yaşlı balasını - Cavan Canan oğlunu o gecə itirib. Dörd gün meşədə gizlənsələr də sonradan onları əsir götürüblər. Gənc və yeniyetmə oğlanları onlardan ayırıb naməlum istiqamətə aparıblar ki, ölmüş ermənilərin məzarı üstündə başlarını kəssinlər. Həyat yoldaşı ilə birlikdə min bir məşəqqətlər yaşadığı əsirlikdən qurtarıb gəlsələr də, oğlundan hələ də bir soraq ala bilməməsi onu dağlayır...

Anım mərasimi iştirakçıları arasında respublikamızın tanınmış ziyalıları da var idi. İnternat Məzunlarının Sosial İnteqrasiya Gənclər İctimai Birliyinin sədri Araz Əhmədov deyir ki, Xocalı faciəsinin dünyada soyqırımı kimi tanınması üçün dünya azərbaycanlılarının da üzərinə çox böyük məsuliyyət düşür: “Tarixin ən qəddarcasına törədilmiş kütləvi terror aktına qarşı səsimizi bir daha ucaltmalıyıq!

Xocalının qisasının alınması faciənin mahiyyətinin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasından keçir. Düzdür, Prezident İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın “Xocalıya ədalət” devizi artıq nəticəsini göstərməkdədir.

Xocalı, ümumiyyətlə, Qarabağ dərdləri bizi daha çox birləşdirir. Həmin birliyin bu gün şahidiyik. Bu, işğalçı Ermənistana və haqqa göz yuman, ikili standartlardan xilas olmayan bir sıra beynəlxalq birliklərə mesajdır: Biz Xocalıya dönəcəyik! Biz Qarabağımızın işğal altında qalmasına dözməyəcəyik. Buna hərbi, iqtisadi gücümüz və sıx birliyimiz də sübutdur!”

Tahirə Hüseynovanı danışdırmaq heç də asan deyildi. Dilində ancaq bayatı-ağı idi. Görünür ki, doğmalarının, əzizlərinin adları bu abidə üzərində yazılanlardan idi..

Almaz Məmmədova isə fikirlərini bir qədər fərqli ifadə etdi. Qarabağın, o cümlədən yağmalanan Xocalısının qisasının alınmasında hər an öndə getməyə hazırdır! Bu, onun düşmən üzərində qələbə çalınması, torpaqlarımızın işğaldan azad olunması naminə söylədiyi mübariz fikirlərindən də hiss olunurdu.

Xocalı faciəsi xalqımızın yaddaşından heç vaxt silinməyəcək. Ziyarətdə Bakı şəhəri Nərimanov rayonunun səhiyyə işçilərinin əksəriyyəti iştirak edirdi. Həkimlərdən Rafael Bayramov, Arzu Səfərova, Amil Eyvazov, Svetlana Nəcəfova, Firuz Nağıyev, Sevinc Həsənova, Elzamə Hacıyeva və digərləri anım mərasimində iştirakı özlərinə vətəndaşlıq borcu hesab edirdilər. Deyirdilər ki, qoy bütün bəşəriyyət səsimizi eşitsin, Azərbaycan torpaqları işğaldan azad olmalıdır, ədalət zəfər çalmalıdır!

Ziyarətçilər arasında qardaş Türkiyədən gələnlər də az deyildi. Türkiyənin Bursa şəhərindən gəlmiş Mehmet Sevgin bildirdi ki, Xocalı faciəsi xalqımızın, insanlığın qan yaddaşına yazılmış ən dəhşətli hadisədir: “Hər il Xocalı qətliamının qurbanlarının anım tədbirində iştirak edirik. Biz azərbaycanlı qardaşlarımızla birlikdə eyni acıları hiss edirik. Soyqırımı zamanı Ermənistan silahlı qüvvələrinin, sovet qoşun birləşməsi alayının iştirakı ilə milli mənsubiyyətinə görə yüzlərlə türkü vəhşicəsinə qətlə yetirdilər”.

Kayseridən olan Müzəffər Eroğlu və dostları Xocalı şəhidlərinin anım mərasimində iştirak etməyi özlərinə borc biliblər. Deyirlər ki, Xocalı faciəsi yalnız azərbaycanlıların deyil, bütünlüklə türk xalqlarının qan yaddaşına yazılmalıdır! Bu faciə heç vaxt unudulmamalıdır!

Dünən kimi dindirdiksə söylədi ki, belə haqsızlığı nə dünya birliyi, nə də tərəqqipərvər insanlar heç vaxt bağışlamamalıdır: “Bu, bəşəriyyətə, insanlığa qarşı vəhşilikdir. Bu tarix heç zaman unudulmayacaq. Biz inanırıq ki, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində şəhid Xocalı və digər Qarabağ torpaqları işğaldan azad olunacaq!”

***Məhəmməd NƏRİMANOĞLU, Zöhrə FƏRƏCOVA, Ağaəli MƏMMƏDOV (foto), “Azərbaycan”***

## Bakı Ali Neft Məktəbinin tələbəsi ölkə birincisi oldu



Bakı Ali Neft Məktəbi mətbuat xidməti məlumat verir ki, Dövlət İmtahan Mərkəzi tərəfindən ali təhsil müəssisələrinə və AMEA-nın magistraturalarına fevralın 23-də keçirilmiş qəbul imtahanının nəticələrinə görə Bakı Ali Neft Məktəbinin tələbəsi ölkə birincisi olub.

Bakı Ali Neft Məktəbinin neft-qaz mühəndisliyi ixtisasının V kurs tələbəsi Seymur Rəhimov qəbul imtahanında ən yüksək nəticə (95 bal) toplayıb.

O, Bakı Ali Neft Məktəbinin bakalavr pilləsinə 2015-ci ildə 678 balla qəbul olub.

# Beynəlxalq aləm

## Koronavirus qurbanlarının sayı sürətlə artır



Dünyada artıq 2800 nəfərə yaxın adam yeni tipli koronavirusun qurbanı olmuşdur. Çinin hüdudlarından kənarda 49 nəfər dünyasını dəyişmişdir. Bu barədə rəsmi statistikaya istinadən “South China Morning Post” qəzeti xəbər verir.

Məlumata görə, 16 nəfər İranda, 12 nəfər Cənubi Koreyada, 11 nəfər İtaliyada, 5 nəfər Yaponiyada, 2 nəfər Honq Konqda vəfat etmişdir. Fransa, Tayvan və Filippində hərəyə bir ölüm halı qeydə alınmışdır.

Dünənki statistikaya əsasən, dünyada koronavirusa 80993 nəfər yoluxmuşdur. Ən çox xəstə Cənubi Koreyada aşkar olunmuşdur - 1146 nəfər. Yaponiyada 850 nəfər, İtaliyada 323 nəfər, İranda 95 nəfər, Sinqapurda 91 nəfər, Honq Konqda 85 nəfər, ABŞ-da 53 nəfər, Tailandda 37 nəfər, Tayvanda 31 nəfər, Avstraliyada 23 nəfər, Malayziyada 22 nəfər, Almaniyada 18 nəfər, Vyetnamda 16 nəfər, Fransada 14 nəfər, BƏƏ və Böyük Britaniyada hərəyə 13 nəfər, Makao və Kanadada hərəyə 10 nəfər xəstəliyə yoluxmuşdur.

Bu arada Çinin materik hissəsində koronavirusdan ölənlərin sayı 2715 nəfərə çatmışdır. Son bir gün ərzində 52 xəstə vəfat etmişdir. İndiyədək xəstəliyə 78064 nəfər yoluxmuş, 29745 nəfər sağalaraq xəstəxanadan evə buraxılmışdır.

## Hindistanda müsəlman rayonları talan edilir

Hindistanın Dehli şəhərində müsəlmanlara hücum nəticəsində 20 nəfər həlak olmuş, onlarla adam yaralanmışdır. Bu barədə “BBC News” telekanalı xəbər verir.

Məlumata görə, dəyənəklə silahlanmış induslar müsəlmanları mühasirəyə alıb onlardan hind dini şüarlarını səsləndirməyi tələb edir və bundan sonra onları döyürlər.

Toqquşmalarda 189 nəfər yaralanmışdır. Azı iki məscid hücuma məruz qalmışdır.

İğtişaşlar ötən ilin dekabrından bəri davam edir. Buna səbəb vətəndaşlıq haqqında qəbul olunmuş yeni qanun layihəsidir. Qanuna əsasən, qonşu ölkələrdən gələn mühacirlərə dini əlamətə görə vətəndaşlıq veriləcək.

## “Əş-Şəbab”ın iki lideri məhv edildi

ABŞ Silahlı Qüvvələri “əş-Şəbab” terrorçu qruplaşmasının iki liderini məhv etmişdir. Afrika Hərbi Komandanlığının (AFRİCOM) verdiyi məlumata görə, terrorçular Keniyadakı Manda-bey bazasına hücum etməkdə ittiham olunurdular.

Xüsusi əməliyyatın gedişində terrorçulardan birinin qruplaşmanın üzvü olan həyat yoldaşı da öldürülmüşdür.

Xatırladaq ki, cari ilin əvvəllərində Manda-bey bazası terrorçuların hücumuna məruz qalmışdır. O vaxt bir amerikalı hərbi qulluqçu həlak olmuş, Pentaqonla müqavilə ilə çalışan daha iki ABŞ vətəndaşı yaralanmışdır. Bu hücuma cavab olaraq bazaya ABŞ Silahlı Qüvvələrinin əlavə bölmələri göndərilmişdir.

## Məşhur amerikalı qanqster öldü



Amerikanın ən məşhur qanqsterlərindən biri - “Sonni” ləqəbli Con Franseze (ata) 104 yaşında Nyu York xəstəxanasında vəfat etmişdir. Bu barədə “Sky News” telekanalı xəbər verir.

Franseze 33 yaşında qoşulduğu “Kolombo” mafioz ailəsinin üzvü kimi tanınır. O, 1990-cı illərin ortalarınadək ailə ierarxiyasında ikinci yeri tuturdu.

Qanqster bankları qarət etdiyinə, qətllər törətdiyinə və digər cinayətlərə görə dəfələrlə mühakimə olunmuşdur. O, son dəfə 2011-ci ildə həbs cəzası almış, amma 2017-ci ildə qocalığına görə azadlığa buraxılmışdı. Fransezenin üç oğlu, iki qızı və çoxlu nəvə-nəticəsi var.

## Vaşinqton Rusiya, Çin, İraq və Türkiyəyə qarşı sanksiyalar tətbiq etdi



ABŞ hökuməti Rusiya, Çin, İraq və Türkiyənin 13 şirkətinə və fiziki şəxslərinə qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə Dövlət Departamenti məlumat vermişdir.

Yeni məhdudlaşdırıcı tədbirlər Çin və Türkiyənin beş şirkətinə və İranın raket proqramını dəstəkləməkdə ittiham olunan şəxslərə qarşı tətbiq edilmişdir.

Çinin daha bir vətəndaşı Vaşinqton tərəfindən Pakistanın silah proqramı üçün ikili təyinatlı məhsullar satmaqda ittiham edilmişdir.

Rusiyanın məhz hansı şirkətlərinin, yaxud fiziki şəxslərinin “qara siyahı”ya salındığı dəqiqləşdirilmir.

İran, KXDR və Suriyada silahların yayılmaması haqqında qanun bu ölkələrə nüvə, kimyəvi, bakterioloji silahların, habelə onların daşınması vasitələrinin hazırlanmasına kömək edən texnologiyalar verilməsini qadağan edir.

## Atəşkəs rejimi 22 dəfə pozulub

**Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 22 dəfə pozub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Aşağı Əskipara, Bala Cəfərli, Tovuz rayonunun Koxanəbi və Gədəbəy rayonunun Qaravəlilər kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Ermənistanın Paşinyana olan ümidləri tükənir

## İşğalçı ölkənin daha böyük səfalətə sürüklənəcəyi proqnozlaşdırılır

Ermənistanda sosial-iqtisadi sahədə vəziyyətin dəyişə biləcəyinə dair gözləntilər özünü doğrultmur. Əslində, bundan sonra nəyinsə dəyişəcəyinə erməni cəmiyyəti inamını tam itirib. Ermənistanın baş naziri Paşinyana olan ümidlər də puça çıxıb. O, çıxışlarında köklü dəyişikliklər vəd etsə də, bunun sadəcə yalandan başqa heç nə olmadığı reallıqda öz təsdiqini tapır.

Yeni iqtidar da vəziyyətdən çıxış üçün daha çox xarici borclanmaya üstünlük verir. Bunun üçün beynəlxalq təşkilatlardan, maliyyə qurumlarından böyük miqdarda borclar alınır. Amma maraqlısı odur ki, həmin borcların faiz ödənişlərini vermək üçün digər təşkilatdan kreditlər götürülür və bu minvalla alınan borcla başqa borcun faizləri ödənilir. Amma ilkin və sonrakı borcların əsas məbləğləri ilə bağlı heç bir ödəniş olmadığından borclar daha da artır, faizlər böyüyür.

“Lragir” qəzeti yazır ki, Ermənistanın ixracı azalır, insanların sabaha ümidi əriyir.

Bildirilir ki, işğalçı ölkəyə görünməmiş bir investisiya axını müqabilində insanların “şah” kimi yaşayacaqları barədə yeni hakimiyyətin dedikləri artıq arxaizmə çevrilməkdədir. Artıq Ermənistan vətəndaşlarının sabaha olan nikbinlikləri sürətlə itir. Bunun səbəbləri çoxdur. Məsələn, bu gün Ermənistanda “iqtisadi inqilabdan” sonra xarici ticarət balansının kəskin şəkildə azalması müşahidə edilir.

Məqalədə yazılır ki, erməni iqtisadçılar ölkədə ixracın idxaldan demək olar ki, 2,1 dəfə az olduğunu bildirirlər: “Onlar bunu rəqəmlərlə əsaslandırırlar. Əgər 2017-ci ildə xarici ticarətdə mənfi saldo 1 milyard 860 milyon dollar idisə, 2019-cu ildə 2 milyard 874 milyona çatıb. Yəni son iki ildə mənfi saldo 1 milyard dollar artıb”.

Hökumətin ötən il ixracın 9,4 faiz artaraq təxminən 228 milyon dollar olmasını böyük uğur kimi qələmə verməsinə diqqət çəkən nəşr bu müddət ərzində idxalın 10,8 faiz və ya 538 milyon dollar artdığını hökumət rəsmilərinə xatırladır.

Qeyd edək ki, 2019-cu ildə Ermənistan 5.5 milyard dollar dəyərində məhsul idxal edib. Vurğulanır ki, Ermənistan rəhbərliyi pafoslu çıxışlarını səngidib bu vəsaitin bir hissəsini yerli istehsalın inkişafına da yönəldə bilərdi. Bu gün Ermənistanın ixracla bağlı ağır vəziyyəti təkcə Avrasiya İqtisadi Birliyinə daxil olan ölkələrlə deyil, həm də Avropa istiqamətində müşahidə edilir. Əgər 2017-ci ildə Ermənistanın Avropa Birliyi ölkələrinə ixracı 633 milyon dollar təşkil edirdisə, 2019-cu ildə bu rəqəm 583 milyon dollara düşüb. Belə ki, son iki ildə Ermənistanın Avropa Birliyi ölkələrinə ixracı 28 faizindən 22 faizə enib.

Belə durumda ən çox diqqəti cəlb edən məqamlardan biri də Ermənistanda Paşinyan və Konstitusiya Məhkəməsi arasında gərginliyin ən yüksək həddə çatmasıdır. Onu da əlavə edək ki, bu il aprelin 5-də Ermənistanda konstitusiya dəyişiklikləri ilə bağlı referendum keçiriləcək. Baş nazir Nikol Paşinyanın təşəbbüsü ilə həyata keçiriləcək bu referendum daha çox Konstitusiya Məhkəməsinin hazırkı rəhbəri Hrayr Tovmasyanın və bir sıra hakimlərin istefasına hesablanıb. Referendumun bahalı bir proses olduğunu xatırladan yerli mətbuat Ermənistanda 2003-cü ildə keçirilən referenduma 138 min 314 dollar, 2015-ci ildə isə 3, 8 milyon dollar xərcləndiyini xatırladır. Apreldə keçiriləcək növbəti referendum üçün 7,1 milyon ABŞ dolları vəsait xərclənəcək. Maraqlıdır ki, bu gün Ermənistanda bir çox siyasi təhlilçilər Paşinyanın referendumdan məğlub kimi ayrıla biləcəyini də istisna etmirlər. Çünki xalq artıq baş nazirin yalanlarından təngə gəldiyi üçün ölkənin əsas qanununa təklif edilən dəyişikliklərə “yox” da deyə bilər.

Ermənistan ordusunda əvvəllər də müşahidə olunan qanun pozuntuları artıq daha geniş miqyas almağa başlayıb. Erməni ordusunun itkisi həm döyüş, həm də qeyri-döyüş şəraitində kütləvi şəkildə artır. Bütün bunlar isə, ilk növbədə, Ermənistanda əsgər analarının hakimiyyətə qarşı daha sərt mövqedən çıxış etməsinə səbəb olub. Bu günlərdə əsgər anaları hökumət binasının qarşısında növbəti etiraz aksiyası keçiriblər.

Hökumət binası qarşısında aksiyaya başlayan analar baş nazir Nikol Paşinyan ilə görüşmək istədiklərini bildirirlər. Onlar hökumətdən əsgərlərin öldürülməsinə son qoyulmasını tələb edirlər: “Tələbimiz odur ki, övladlarımızın hərbi xidmətdə öldürülməsinə son qoyulsun. N.Paşinyan bizi qəbul etməlidir və ciddi danışmalıyıq. Bu, belə davam edə bilməz. Nə qədər laqeyd olmalıyıq? Şənbə, bazar və ya gecə olsun, kitabı paylamağa vaxtı varsa, qoy bizi qəbul etsin. Əsgər kitabdan daha vacibdir!”.

Bütün bu qeyd edilənlər aydın şəkildə sübut edir ki, Ermənistanda yaxın tezlikdə vəziyyət daha da gərginləşə bilər.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

## “Bakı Metropoliteni” QSC
### tunellərdə istifadə olunan korroziya əleyhinə xüsusi boya örtüklərinin satın alınması üzrə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. “Bakı Metropoliteni” QSC-nin tunellərində istifadə olunan korroziya əleyhinə xüsusi boya örtüklərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 500 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN) : AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18 mart 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **02 aprel 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **03 aprel 2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
### Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması üçün
### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

- Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması Respublikanın 18 şəhər və rayonunda (Ağdam, Naftalan, Göyçay, Zərdab, İmişli, Ağstafa, Lənkəran, Kürdəmir, Xızı, Oğuz, Daşkəsən, Qəbələ, Quba, Fizuli, Şəki, Balakən, Gədəbəy, Lerik) Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə cəmi 274 ədəd olmaqla fərdi evlərin tikintisi işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Əlaqələndirici şəxs: Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: 3000 (üç min) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
10. *Digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **7 aprel 2020-ci il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **16 aprel 2020-ci il saat 17.00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17 aprel 2020-ci il saat 15.00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Güclü külək bölgələrdə fəsadlar törədib

### *Ağdam*

Fevralın 25-də əsən güclü külək Ağdam rayonunda bir sıra ciddi fəsadlar törətmişdir. Bununla bağlı Ağdam Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, fövqəladə hallar üzrə komissiyanın sədri Allahverən Əliyev demişdir:

- Fevralın 25-də əsən güclü külək rayonun təsərrüfatlarına, evlərə, məktəblərə, sahibkarlıq obyektlərinə xeyli ziyan vurmuşdur. Dəymiş zərərin miqyası barədə mütəxəssislər tərəfindən dəqiq araşdırmalar aparılır. İlkin məlumatlara əsasən deyə bilərəm ki, güclü külək təxminən 100 fərdi evə, 150 yardımçı tikiliyə, 8 ümumtəhsil məktəbinə, 2 uşaq bağçasına ciddi zərər yetirmişdir. 0,5 hektar ərazidə yeni qurulmuş, artıq nübar məhsul gözlənilən istixana tamamilə yararsız hala düşmüş, sahibkarlara xeyli maddi ziyan dəymişdir. Külək çox sayda ağacları aşırmış, rayonun elektrik təsərrüfatına zərər vurmuşdur. Təbiətin doğurduğu problemləri aradan qaldırmaq üçün operativ tədbirlərə start verilmişdir.

### *Tərtər*

Güclü külək Tərtər rayonunda da irili-xırdalı xeyli fəsadlar törətmişdir. Tərtər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, fövqəladə hallar üzrə komissiyanın sədri Ramiz Şabanov qasırğanın nəticələri barədə əməkdaşımıza bunları söyləmişdir:

- Gözlənilmədən başlayan güclü külək rayonda fərdi evlərə, ictimai binalara, elektrik təsərrüfatına xeyli ziyan vurmuşdur. Qasırğadan rayonun demək olar ki, bütün kəndlərində çox sayda fərdi yaşayış evləri, yardımçı tikililər zərər



çəkmişdir. 9 məktəbə müxtəlif dərəcədə ziyan dəymişdir. 38 işıq, 15 telefon dirəyi aşmışdır.

Hazırda qüvvələr təbii fəlakətin yaratdığı problemlərin aradan qaldırılmasına səfərbər edilmişdir.

***L.QULİYEV,***
***“Azərbaycan”***

# Türkiyədən yük nəqliyyat vasitələrinin Naxçıvan Muxtar Respublikasına buraxılışı bərpa edilib

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilmiş görüşdə Türkiyədən Naxçıvan Muxtar Respublikası istiqamətində yük nəqliyyat vasitələrinin və vətəndaşların hərəkətində yaranan məhdudiyyətlər müzakirə edilib.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, mövcud vəziyyətlə bağlı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Rəcəb Tayyib Ərdoğan qarşısında məsələ qaldırılıb. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə Respublikasının “Dilucu” dövlət sərhədindən buraxılış məntəqəsindən yük nəqliyyat vasitələrinin Naxçıvan Muxtar Respublikasına “Sədərək” dövlət sərhədindən buraxılış məntəqəsindən buraxılmalarına dair Türkiyə Respublikasının aidiyyəti dövlət orqanlarının rəhbərlərinə göstərişlər verib. Bu göstərişlər nəticəsində fevralın 26-da saat 15:10 radələrindən etibarən yük nəqliyyat vasitələrinin buraxılışları bərpa edilib.

***“Azərbaycan”***

# General-mayor Natiq ƏLİYEV: “Şəxsi heyətin xəstəliklərə yoluxmasının qarşısını almaq məqsədilə ciddi qabaqlayıcı tədbirlər görülür”

**Mövsümi kəskin respirator xəstəliklər, o cümlədən koronavirus infeksiyasının yayılması ehtimalını və hərbi hissələrin şəxsi heyətinin bu kimi xəstəliklərə yoluxmasının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunda ciddi qabaqlayıcı tədbirlər həyata keçirilir.**



Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, general-mayor Natiq Əliyev deyib.

N.Əliyev bildirib ki, xəstəliklərin profilaktikası məqsədilə Müdafiə nazirinin əmri ilə hərbi qulluqçuların sağlamlığının qorunub saxlanılması, yoluxucu xəstəliklərə qarşı profilaktik və əks-epidemik tədbirlər görülür. Hazırda bütün hərbi hissələrdə mövsümi xəstəliklərdən qorunma yolları barədə tibbi maarifləndirmə işi və hərbi qulluqçuların gündəlik termometriyası aparılır. Azərbaycan Ordusunda görülən qabaqlayıcı tədbirlər nəticəsində şəxsi heyətin sağlamlığı ilə bağlı bugünədək heç bir narahatlıq qeydə alınmayıb, epidemioloji vəziyyət sabitdir və nəzarət altındadır.

# “Azercell” ADA Universitetinin təqaüd proqramına dəstək olur

**Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafına daim töhfə verən “Azercell” şirkəti bu sahə üzrə savadlı kadrların yetişdirilməsinə xüsusi diqqət ayırır.**

Bu dəfə lider mobil operator ADA Universitetinin İnformasiya texnologiyaları və mühəndislik fakültəsində təhsil alan və fərqlənən tələbələr üçün təqaüd ayıraraq, onların fərdi və peşəkar inkişafına dəstək olub.

Tələbələr fevralın 21-də ADA Universitetində təşkil edilən “Akademik mükəmməllik günü”ndə təltif ediliblər. Beləliklə, 4 tələbə dünya şöhrətli azərbaycanlı alim və qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin adına təsis edilmiş təqaüdə layiq görülərək təhsil haqqından tamamilə azad olunublar. Əlavə olaraq, 22 tələbə 50, 23 tələbə isə 25 faiz təhsil güzəşti əldə ediblər.

Xatırladaq ki, “Azercell Telekom” MMC 2013-cü ildən başlayaraq ADA Universitetinin fonduna maliyyə yardımı edir. Sosial layihələrin təşəbbüskarı və fəal iştirakçısı olan şirkət fəaliyyət dövrü ərzində bu istiqamətdə 19 milyon dollardan artıq yatırım edib.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən “Azərbaycan” qəzetinin 05.02.2020-ci tarixli nömrəsində dərc edilmiş “Cəmiyyət və Din” qəzetinin və “Dövlət və Din” jurnalının çapı işlərinin satın alınması ilə bağlı açıq tender Tender komissiyasının qərarına əsasən 19.03.2020-ci il saat 11:00-dək uzadılmışdır (ilkin sənədlərin qəbulu 10.03.2020-ci il tarixədək təqdim olunmalıdır). Maraqlanan təşkilatlar etender.gov.az saytı vasitəsilə elektron tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC üçün 5x2 ölçülü LED monitorların və onlayn statistikanı müəyyənləşdirən proqram təminatının satın alınmasına dair 11.02.2020-ci il tarixdə keçirilən açıq tenderdə heç bir tender təklifi texniki tələblərə uyğun olmadığına görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Göyçay şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2020-ci il üçün kotirovka sorğusu elan edir

1. Dəftərxana ləvazimatı
2. Digər malların alınması
3. Tikili və avadanlıqların cari təmiri
4. Yumşaq inventar
5. Elektrik materiallarının alınması və təmiri
6. Odun yanacağının alınması
7. İstehlakyönümlü müxtəlif xərclər
8. Maşın və avadanlıqlar

**Əlaqə telefonu: 274-12-29**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
### *kotirovka sorğusu elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün elektrik mallarının satın alınması.

Kotirovka sorğusu üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci **10 mart 2020-ci il saat 18:00-dək** əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və **11 mart 2020-ci il saat 10:00-da** Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elnur Musayev, telefon - 493-11-22 (daxili 490).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 20 fevral 2020-ci il tarixdə keçirilmiş “Bakı Metropoliteni” QSC-nin Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə fiziki şəxs Həsənli Emil Hüseynqulu oğlu qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 26.02.2020-ci il tarixdə ƏDV daxil 51 920,00 (əlli bir min doqquz yüz iyirmi manat 00 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Sərhədi qanunsuz keçmək istəyənlər saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, 23 fevral tarixdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Xudat” sərhəd dəstəsinin Qusar rayonu Şirvanovka kəndi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətində dövlət sərhədini pozmağa cəhd edərkən 25.06.1983-cü il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşı Soltanov Elşən Qismət oğlu sərhəd pozucusu qismində saxlanılmışdır. İlkin araşdırma zamanı onun dövlət sərhədindən rəsmi qaydada hərəkətinə məhdudiyyət qoyulduğundan sərhədi qanunsuz olaraq keçməyə cəhd göstərməsi müəyyən olmuşdur.



Qeyd olunan tarixdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonu Əmirzeyidli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində 3 nəfər şəxsin əraziyə yaxınlaşaraq xüsusi gizlədilmiş yerdən bağlama götürmələri müşahidə olunmuş və onlar hadisə yerindən uzaqlaşmağa cəhd edərkən sərhədçilər tərəfindən saxlanılmışlar.

Saxlanılan şəxslərin Ağcabədi rayon Avşar kənd sakinləri - 1980-ci il təvəllüdlü Mehdiyev Qərib Aqil oğlu, 1974-cü il təvəllüdlü Mamedov Cabir Camal oğlu, Beyləqan rayon “Mil” üzümçülük qəsəbə sakini 1967-ci il təvəllüdlü Nəzərov Yusif Şəmil oğlu olması müəyyən edilmişdir. Bağlamaya baxış keçirilərkən qara rəngli polietilen paketdə çəkisi 4374 qram olan marixuana və 254 qram metofitamin aşkar olunmuşdur.

Hər iki fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***“Azərbaycan”***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Elmi təşkilat şöbəsinin müdiri Mahir Piriquliyevə əmisi

MƏMMƏDRƏSUL MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6942
Sifariş 666
Qiyməti 40 qəpik